***İqtisadiyyata giriş fənni üzrə suallar və cavablar***

## *Mövzu 1. İqtisad elminin meydana qəlməsi və onun inkişafının əsas mərhələləri*

**1.İqtisadiyyat və iqtisad elmi.**
**2.İqtisadi nəzəriyyə yaranana qədərki iqtisadi fikir.**
**3.İqtisad elminin yaranması və inkişafının əsas mərhələləri.**
**4.Müasir iqtisad elminin istiqamətləri.**
**5.»Ekonomiya», «Ekonomika» (İqtisadiyyat), «İqtisadi nəzəriyyə», «Siyasi iqtisad», «Ekonomiks» anlayışlarının nisbəti.**

### *1. İqtisadiyyat və iqtisad elmi.*

İqtisadiyyat «oikonomik» söründən əmələ qəlib və təsərrüfatın sərişdəli, məharətli aparılması mənasını verir. Təsərrüfat fəaliyyəti kimi iqtisadiyyat insanların birgə yaşayışını təmin edən şərtlərdən biridir. İqtisadiyyat sosial, siyasi, mədəni və başqa proseslərlə sıx əlaqəlidir, buna görədə onu zəruri həyat nemətlərinin yaradılması və cəmiyyətin tələbatlarının ödənilməsini təmin edən iqtisadi sistem kimi də başa düşmək olar.

İqtisadi fikirlər qədim dövrlərdən müxtəlif mütəfəkkirlərin əsərlərində rast olunsada, bir müstəqil elm kimi o XV-XVII əsirlərdə yaranmağa başlamışdır. İlk iqtisadi məktəb sayılan merkantelistlər iqtisad elminin vəzifəsini sərvətin mənbəyinin müəyyənləşdirilməsində görurdülər. Onlar sərvət qızılla eyniləşdirir və onun mənbəyinin muladilə olduğunu etiraf edirdilər. İqtisad elminin inkişafında fiziokratların əsərlərinin mühüm əhəmiyyəti olmuşdur. Fiziokratlar tədqiqatı mübadilədən istehsala keçirdilər və sərvətin mənbəyi kimi əkinçiliyi elan edirlər. Fiziokrat F.Kene öz «İqtisadi cədvəl»ində ilk təkrar istehsal modelini yaratmışdır. İqtisad elmi ingilis klassik siyasi iqtisad məktəbinin nümayəndəsi A.Smit tərəfindən formalaşdırmışdır, o iqtisad elminin banisi sayılır. Müasir iqtisad elmi neoklassik məktəbin təlimi üzərində qurulmuşdur.

### *2. İqtisadi nəzəriyyə yaranana qədərki iqtisadi fikir.*

İlk iqtisadi fikirlər hələ iqtisadi nəzəriyyə yaranana qədər, xeyli qədimdə insanların təsərrüfat fəaliyyəti ilə bağlı baxışlarda özünü göstərir. Aydındır ki, o dövrdə sistemləşdirilmiş iqtisadi təlimlər mövcud ola bilməzdi. Lakin ayrı-ayrı mütəfəkkirlərin əsərlərinə müəyyən iqtisadi anlayışlar, bəsit iqtisadi fikirlərə rast olunur. Bu baxımdan qədim şərqdə eramızdan əvvəl IV-III əsrlərdə Hindistan və Çində müxtəlif ictimai elmlərə aid əsərlərdə bəzi iqtisadi fikirlər maraq doğurur. O zaman hökmüdarlara dövlətin idarə edilməsi haqqında tövsiyyələr şəklində yazılmış əsərlərdə var-dövlətin toplanması, xəzinə və vergi, istehsal və ticarət haqqında baxışlar ilk iqtisadi fikirlərə aid edilə bilər.

İqtisadi fikir sonrakı inkişafını Qədim Yunanıstan və Romada görkəmli filosofların Ksenefont, Aristotel, Platon, Katonun əsərlərində görmək olar. Bu əsərlərdə mübadilə, ticarət, qiymət, təsərrüfatın təşkili haqqında dəyərli fikirlər əks olunmuşdur.

İqtisadi nəzəriyyənin bir elm kimi formalaşmasına qədər orta əsrlərdə qədim Şərqin görkəmli filosları İbn Sina, İbn Xaldun və başqalarının əsərləri xüsusilə qeyd edilməlidir. Həm Avropada, həm də şərqdə dini təlimlərdə, müqəddəs kitablarda mövcud olan iqtisadi deyimlərdə iqtisadi fikirlərin inkişafında mühüm rol oynamışdır.

XV-XVII əsrlərdə Avropada kapitalizmin yaranması ilə təsərrüfatda baş verən yeniliklər o zamanın iqtisadi fikrinin inkişafına təkan verdi. İqtisadi biliklərin sistemləşdirilməsinə təşəbbüs göstərən merkantilist və fizokratlar məktəblərinin yaranması və inkişafı sonralar klassik siyasi

iqtisadın nümayəndələri A.Smit və D.Rikardonun əsərlərində iqtisad elminin formalaşmasına səbəb oldu.

### *3.İqtisad elminin yaranması və inkişafının əsas mərhələləri*.

İqtisadi nəzəriyyənin bir elm kimi formalaşması, XVI-XVII əsrlərdən başlamışdır. Kapitalizmin yaranması ilə əmtəə-pul münasibətlərinin inkişafı, manufaktura sənayesinin qərarlaşması, xarici və daxili ticarətin intensivləşməsi bir çox suallara elmi izah verilməsini tələb edirdi. İlk iqtisadi məktəbin merkantelizmin nümayəndələri empirik yanaşma əsasında ən çox təsadüf ediləni, mübadiləni tədqiqatın əsas obyekti seçdilər. Onlar sərvəti pulla eyniləşdirir və mübadiləni sərvətin mənbəyi saydılar. Növbəti iqtisadi məktəb fiziokratlar sərvətin mənbəyi kimi əkinçiliyi göstərməklə ilk dəfə tədqiqatı mübadilədən istehsala keçirdilər. Lakin onlar sənayeni, sənətkarlığı və başqa istehsal sahələrini qeyri-məhsuldar sahələr kimi görürdülər. Fiziokratların elmə gətirdiyi yeniliklərdən biri də təkrar istehsal prosesini öyrənmək təşəbbüsü idi. F.Kene öz «iqtisadi cədvəl»ində ilk makroiqtisadi model yaratmağa nail olmuşdur.

Elmin sonrakı inkişafı və müstəqil iqtisadi elm kimi formalaşması ingilis klassik siyasi iqtisadının nümayəndələrinin əsərlərində əks olunmuşdur. A.Smit iqtisad elminin banisi kimi iqtisadi kateqoriyaları və elmi qanunları sistemləşdirilməklə iqtisad elminin müstəsna rol oynamışdır. İqtisad elminin sonrakı inkişafı XIX marksizim, majinalizm, neoklassik məktəblərin nümayəndələrinin əsərlərində öz əksini tapır. XX əsrdə müxtəlif cərəyanlarda iqtisad elminin inkişafı baş vermişdir. Bunlardan keynsçilik, neoliberalizm, monetarizm, institusionalizm və başqalarını göstərmək olar.

### *4. Müasir iqtisad elminin istiqamətləri.*

Müasir iqtisadi nəzəriyyə dedikdə XIX əsrin sonu XX əsrin əvvəllərindən yaranan elmi cərəyanlar nəzərdə tutulur. XIX əsrin sonlarında geniş yayılmış klassik və marjinalist nəzəriyyələrin vahid konsepsiyada birləşdirilməsi zərurəti yarandı.İlk dəfə bu problem neoklassik məktəbin banilərindən biri A.Marşalın əsərlərində dərindən təhlil edilir. Beləliklə neoklassik məktəb yaranır, sonrakı dövrlərdə yaranmış keynsçilik və institusional – sosioloji məktəblər də müasir iqtisad elminin əsas istiqamətlərinə aiddir.

Neoklassiklər bazar mexanizminin tənzimləyici roluna daha çox əhəmiyyət verməklə iqtisadiyyata dövlət müdaxiləsinin məhdudlaşdırılması tərəfdarları idi. Bu nəzəriyyənin tərəfdarları kimi o dövrdə monetarist, neoliberalist və başqa cərəyanlar yarandı. Lakin 1929-1933-cü illərin ümumdünya bövranı iqtisadiyyata bazarın tənzimləyici mexanizm olması haqqında fikirləri inkar etdi.

XX əsrin 30-cu illərində C.Keyns dövlətin iqtisadiyyata müdaxiləsinin zəruriliyini əsaslandıran təlim yaratdı. Bu müasir iqtisad elminin ikinci istiqamətinin keynsçiliyin yaranması idi. Keynsin təlimi bir çox alimlərin əsərlərində makroiqtisadi tənzimləmə nəzəriyyələri kimi geniş yayılmışdır.

Müasir iqtisad elminin üçüncü istiqaməti institusionalizmin banisi T.Veblen sayılır. İnstitusionalistlər iqtisadiyyatda sosial amillərin təsirinə xüsusi yer verirlər. Onlar sosial, mədəni, texniki, texnoloji amillərin iqtisadiyyatla funksional asılıqda olduğunu iddia edir və cəmiyyətin fəaliyyətini institutların inkişafı kimi təhlil edilməsini zəruri hesab edirlər. Müasir dövrdə institusional – sosioloji istiqamət iqtisad elminin ən geniş yayılmış cərəyanlarından hesab edilir.

Son illərdə iqtisad elminin inkişafında iqtisadi artım, neokonstitusional, iqtisadi qlobalizm və başqa elmi cərəyanların yayılması da müasir istiqamətlərə aid edilir.

### *5.»Ekonomiya»,»Ekonomika» (İqtisadiyyat),»İqtisadi nəzəriyyə», «Siyasi iqtisad», «Ekonomiks» anlayışlarının nisbəti.*

Bu anlayışlar insanların təsərrüfat fəaliyyəti haqqında tədqiqat aparan alim və elmi məktəblərin müxtəlif dövrlərdə istifadə etdikləri terminlərdir.

Ekonomiya – yunan sözləri oykos – ev , təsərrüfat və nomos – məharət, qanun sözlərindən yaranmışdır. Təsərrüfatın məharətli idarə edilməsi, aparılması mənasını verir.

Ekonomika (iqtisadiyyat) – iqtisadiyyatın bir sistem halında, onun, elementlərinin əlaqəli şəkildə öyrənilməsi haqqında elmdir.

Siyasi iqtisad – yunan sözləri politeyya – dövlət quruluşu, oykos və nomos sözlərindən əmələ gəlib, dövlət təsərrüfatının bacarıqla, məharətli idarə edilməsi mənasını verir.

Ekonomiks – XIX əsrin sonunda məhdud iqtisadi resurslardan istifadə haqqında iqtisad elminin adı kimi istifadə edilmişdir. Bu dövrdə dövlətin iqtisadiyyata müdaxiləsinin əksinə çıxış edən neoklassiklər «Siyasi iqtisad» adından birinci hissəni «politeyya» sözünü (dövlət) görünməklə «ekonomiks» adına üstünlük vermişlər.

İqtisadi nəzəriyyə – təsərrüfatın aparılması, idarə edilməsi haqqında mühüm nəzəriyyələri birləşdirən elm kimi müasir dövrdə iqtisad elminin adıdır.

«Ekonomika» (İqtisadiyyat), «siyasi iqtisad», «ekonomiks»« və «iqtisadi nəzəriyyə» məfhumlarının təkamülü tarixi səbəblərlə şərtlənib, mahiyyət etibariləisə bunlar daim inkişafda olan və iqtisadi hadisələri, təsərrüfatçılıq proseslərini müxtəlif qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq səviyyələrində tədqiq edən eyni bir elmin adlarıdır. İfadəolər, yanaşmalar dəyişir, elm və ayrı-ayrı adamların, qrupların və bütövlükdə cəmiyyətin iqtisadi həyatı haqqında elm olaraq qalır.

## *Mövzu 2. İqtisadi nəzəriyyənin predmeti və metodu*

**1.İqtisadi nəzəriyyənin predmeti.**
**2.İqtisadi proseslərin tədqiqat metodları.**
**3.İqtisadi qanun və kateqoriyalar.**
**4.İqtisadi nəzəriyyənin vəzifələri.**
5.**İqtisadi nəzəriyyə və digər elmlər. İqtisadi nəzəriyyə və iqtisadi siyasət.**

### *1.İqtisadi nəzəriyyənin predmeti.*

Hər bir elm kimi iqtisadi nəzəriyyənin də öz predmeti, tədqiqat sahəsi vardır. Onun predmeti, tədqiqat obyekti haqqında nəzəriyyəçilərin fikirləri müxtəlifdir. Belə ki, iqtisadi hadisə və proseslərin ilk tədqiqatçıları olan klassik məktəblərinin nümayəndələrinə görə iqtisad elminin predmeti milli sərvətdir. Milli sərvət anlayışında da baxışlar müxtəlifdir. Merkantelistlərə görə pul (qızıl, gümüş) milli sərvət hesab olunur. Fizokratlara görə kənd təsərrüfatı məhsulları milli sərvət hesab olunurdu. Klassik ingilis siyasi iqtisadın nümayəndələrindən olan A.Smit milli sərvət anlayışını genişləndirərək sənaye kənd təsərrüfatı, tikinti meşə təsərrüfatı və s. sahələrini ehtiva edən maddi istehsalın məhsulunu milli sərvət hesab edirdi. Bu məktəbin digər nümayəndəsi D.Rikardo iqtisadi nəzəriyyənin predmetinə milli sərvətlə yanaşı onun bölgüsünü də daxil etmişdir.

Marksizmə görə isə iqtisadi nəzəriyyənin predmeti əsasını mülkiyyət münasibətləri təşkil edən istehsal münasibətləridir. İstehsal münasibətləri həyat nemətlərinin istehsalı, mübadiləsi, bölgüsü və istehlakı prosesində insanlar arasında obyektiv yaranan münasibətlərdir.

Marjinalistlər iqtisadi nəzəriyyənin predmetinin fərdlərin və sosial institutlarının (firma, qrup və s.) davranışı, onların öz məqsədlərinə çatma yolları və vasitələrinin təhlili olduğunu bildirirlər.

Klassik siyasi iqtisadın və marjinalizmin əsas müddəalarını sintez etməyə cəhd etmiş, A.Marşall ekonomiksin predmetini insan cəmiyyətinin normal həyat fəaliyyətinin tədqiqi kimi müəyyən etmişdir.

Rol Saumelson « Ekonomiks» dərsliyində iqtisadi nəzəriyyənin çoxsaylı təriflərini verir və göstərir ki, ekonomiks insanların gündəlik işgüzar həyatı və fəaliyyəti haqqında elmdir.

Müasir iqtisadi ədəbiyyatlarda iqtisadi nəzəriyyənin predmetinin resursların məhdudluğunu öyrənən elm olması fikirləri də yayılmışdır. İqtisadi nəzəriyyənin predmetinə baxışlarının

müxtəlifliyini davam etdirmək də olar. Bütün bü müxtəlifliklər iqtisadi hadisə və proseslərin dinamikliyi, iqtisadiyyatın mürəkkəbliyi, insanlar arasında iqtisadi münasibətlərin müxtəlifliyi ilə əlaqədardır.

### *2. İqtisadi proseslərin tədqiqat metodları.*

Hər bir elm öz predmetini tədqiq etmək üçün və vasitələrdən istifadə edir. Bu üsul və vasitələrdən istifadə edir. Bu üsul və vasitələr məcmusu tədqiqat metodlarını təşkil edir. Bəziləri mikroskopdan, digərləri arxiv materiallarından və s. istifadə edir. İqtisadi nəzəriyyədə iqtisadi hadisə və prosesləri öyrənmək üçün, əsasən elmi abstraksiya (təcrit etmə, sərf nəzər etmə) metodundan istifadə edir. Bu zaman tədqiq olunan hadisə digərlərindən təfəkkürümüzdə sərf nəzər olunur və öyrənilir. Bu zaman həmin hadisəyə, prosesə təsir edən digər şərtlər nəzərə alınmır. Məsələn, qiymət tədqiq olunarkən onun səviyyəsinə təsir edən tələb, rəqabət və s. amillər nəzərə alınmır.

İqtisadi hadisələr prosesləri öyrənmək üçün bu metodla yanaşı analiz və sintez, induksiya və deduksiya, tarixi və məntiqi, iqtisadi-riyazi modelləşdirmə, iqtisadi təcrübə və s. metodlarından da istifadə olunur. Universal metod olan analiz öyrənilən hadisənin xəyalən tərkib hissələrə parçalamaq və onların hər birinin ayrı-ayrılıqda öyrənilməsi deməkdir. Məsələn, bazarın elementləri olan tələb, təklif, qiymət, rəqabət, inhisar ayrı-ayrılıqda öyrənilir. Bunlar öyrənildikdən sonra sintez yolu ilə bazar haqqında vahid bitkin fikir yürüdülür. İnduksiya ayrı-ayrı faktlardan ümumi nəticənin çıxarılması deduksiya isə ümumidən xüsusiyə hərəkətdir. Məsələn, ayrı-ayrı məhsulların qiymətlərinə əsasən qiymətlərin ümumi səviyyəsinin müəyyən edilməsi.

İqtisadi problemlərin öyrənilməsində tədqiqatçının əsaslandığı metodologiya da mühüm əhəmiyyət kəsb edir. İqtisadi nəzəriyyənin metodologiyası iqtisadi hadisələri öyrənən metodlar haqqında elmdir. İqtisadi nəzəriyyənin metodologiyasında bir neçə yanaşma mövcuddur. Subyektivçi, neopozitiv-empirik, rasionalist və dialektik materialist. Subyektivçi yanaşmada iqtisadi hadisələrin təhlilində çıxış nöqtəsi kimi təsərrüfatçı subyekt götürülür. Neopozitivist-empirik yanaşmada əsas yerdə tədqiqatın texniki aparatı durur. Rasionalist yanaşmada əsas fikir cəmiyyətin «təbii», rasionalist qanunlarını tapmağa verilir. Dialektik-materialist yanaşmada əsas diqqət hadisələrin gerçəklikdə mövcud olan və onların inkişafında olan daxili əlaqələrin öyrənilməsinə yönəldilir. İqtisadi problemlər və hadisələr daim hərəkətdədir.

### *3. İqtisadi qanun və kateqoriyalar.*

İqtisadi hadisələrin tədqiqi nəticəsində onların mahiyyətinin açılmasına səbəb olur. Bu da real iqtisadi gerçəkliyi az-çox dərəcədə dolğun əks etdirən anlayışların formalaşmasına səbəb olur. İqtisadi həyatın ümumi və mühüm tərəflərini əks etdirən məntiqi anlayışlar iqtisadi kateqoriyalar adlanır. İqtisadi kateqoriya, iqtisadi hadisə və proseslərin elmi adıdır. Məsələn, biz gündəlik fəaliyyətimizdə paltar geyir, yemək yeyir və sair. Bütün bunlar iqtisad elmində istehlak adlanır. İnsanlar gündəlik fəaliyyətində çoxlu miqdarda iqtisadi kateqoriya ilə qarşılaşar. Bunlara pul, qiymət, kredit, tələb, təklif, bazar, mənfəət, istehsal, əmtəə və s. göstərmək olar. İqtisadi hadisələrinin tədqiqi bəzi hallarda bu və ya digər iqtisadi qanunun kəsb edilməsinə səbəb olur. Təbiətdə və ictimai həyatın digər sahələrində olduğu kimi iqtisadiyyatında da ilk nəzərdən görünən hərcmərclik və təsadüflər silsiləsi arxasından inkişafın zəruriliyi, qanunauyğunluğu özünə yol açır. Hər bir cəmiyyətdə iqtisadi prosesləri onlara xas olan daxili qanunlar, iqtisadi qanunlar idarə edir.

İqtisadi qanun iqtisadi hadisələrin, proseslərin, mahiyyətidir. İqtisadi qanun iqtisadi hadisə və proseslərə daxilən xas olan mühüm, zəruri, təkrarlanan səbəb və əlaqələrini özündə əks etdirir. İqtisadi qanunlar da təbiət qanunları kimi obyektiv xarakter daşıyır. Belə ki, onların fəaliyyəti insanların onları istəyib-istəməmələrindən asılı deyildir. İnsanlar iqtisadi qanunları dəyişə, ləğv edə bilməzlər. İnsanlar öz fəaliyyətlərini iqtisadi qanunların tələblərinə müvafiq qursalar daha böyük nailiyyətlər əldə edə bilərlər.

İqtisadiyyatda üç qrup iqtisadi qanunlar fəaliyyət göstərir.
Ümumi iqtisadi qanunlar – bunlar bəşəriyyətin inkişafının bütün mərhələlərində fəaliyyət göstərirlər. Onlar ictimai istehsalın inkişaf prosesini əks etdirir. Bunlara tələbatın artması, əmək məhsuldarlığın yüksəlməsi, ictimai əmək bölgüsü qanunları aiddir.
Əmtəə istehsalının qanunları - bunlar məhsul və xidmətlərin əmtəə xarakteri daşıdığı cəmiyyətlərdə fəaliyyət göstərirlər. Dəyər qanunu, pul tədavülü qanunu, yığım qanunu bu qəbildəndirlər.
Spesifik xüsüsi qanunlar – bunlar tarixən müəyyən təsərrüfatçılıq formalarının inkişaf qanunlarıdır. Bunlara dövrün əsas iqtisadi qanunu, dövrün bölgü qanunu aiddir.

### *4. İqtisadi nəzəriyyənin vəzifələri.*

Bütün digər elmlər kimi iqtisadi nəzəriyyə də müəyyən vəzifələr yerinə yetirir. Bunlardan ən mühümlüsü iqtisadi hadisə və prosesləri tədqiq etmək və onların mahiyyətini izah etməkdir.

İqtisadi nəzəriyyənin digər vəzifəsi digər iqtisadi elmlər üçün metodoloji əsas olmaqdan ibarətdir. Belə ki, iqtisadi nəzəriyyə nəzəri, metodoloji elm olmaqla iqtisadi hadisə və prosesləri tədqiq edir, onların mahiyyətini aşkar edir. Digər iqtisadi elmlər isə həmin hadisənin öz sahələrində təzahür xüsusiyyətlərini araşdırırlar. Məsələn, iqtisadi nəzəriyyə ümumi iqtisadi qanun olan əmək məhsuldarlığının mahiyyətini, artırılması amillərini nəzəri cəhətdən öyrəndiyi halda sahə iqtisadi elmləri bu qanunun öz sahələrində (sənaye, kənd təsərrüfatı, tikinti və s.) təzahürlərini öyrənirlər. Məlum məsələdir ki, iqtisadiyyatın müxtəlif sahələrində əmək məhsuldarlığı amilləri xeyli müxtəlifdir.

İqtisadi nəzəriyyənin mühüm vəzifələrindən biri də cəmiyyət üzvlərində, daha doğrusu onu öyrənənlərdə iqtisadi təfəkkürü formalaşdırmaqdır. İqtisadi təfəkkür dedikdə cəmiyyət üzvlərində iqtisadi hadisələr haqqında müəyyən təsəvvürlərin biliklərin olması və fəaliyyətlərində onlardan istifadə etməsidir. İqtisadi təfəkkür istehsal mədəniyyəti, istehlak mədəniyyəti, ekoloji mədəniyyət, vergi mədəniyyətini özündə birləşdirir.

İqtisadi nəzəriyyə cəmiyyət üzvlərində iqtisadi təfəkkürün formalaşdırmaqla iqtisadiyyat qarşısında duran əsas məsələni, vəzifəni daha dolğun yerinə yetirməyə imkan yaradır. Belə ki, yalnız milyon və on milyonlar iqtisadi biliklərə yiyələndikdə onlar məhsuldar qüvvəyə çevrilərlər.

### *5. İqtisadi nəzəriyyə və digər elmlər. İqtisadi nəzəriyyə və iqtisadi siyasət.*

İqtisadiyyat çox rəngarəng olduğu üçün iqtisadi hadisə və proseslər yalnız iqtisadi nəzəriyyə tərəfindən deyil digər iqtisadi elmlər tərəfindən də öyrənilir. Digər iqtisadi elmlər dedikdə sahə (sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, ticarət, elm, səhiyyə); funksional (maliyyə kredit, marketinq və s.); sahələrarası (iqtisadi coğrafiya, demoqrafiya, statistika və s.) elmləri nəzərdə tutulur. İqtisadi nəzəriyyə bu müxtəlif sahələri tədqiq edən elmlərin metodoloji əsasıdır. Bu müxtəlif sahələrdəki iqtisadi hadisə və prosesləri tədqiq edən konkret elmlər iqtisadi nəzəriyyənin ümumi müddəalarından, göstəricilərindən istifadə edir, konkret iqtisadi elmlər öz sahələrində praktik fəaliyyət üçün zəruri olan qaydalar sistemini hazırlayır.

İqtisadi nəzəriyyə digər iqtisadi elmlərlə yanaşı iqtisadi siyasətlə də sıx əlaqədardır. İqtisadi siyasət dedikdə nemətlərin ictimai istehsal bölgüsü, mübadiləsi və istehlakı üzrə dövlətin məqsədyönlü tədbirlər sistemi nəzərdə tutulur. İqtisadi siyasət ölkədə iqtisadi problemlərin həlli variantlarının tapılması və onların mexanizmlərinin hərəkətə gətirilməsi ilə məşğul olur. İqtisadi siyasət iqtisadi nəzəriyyənin ümumiləşdirmələrini nəzərə aldığı dərəcədə də uğurlu olur. İqtisadi siyasətin uğurlu olması cəmiyyət üzvlərinin iqtisadi təfəkkür səviyyəsindən də xeyli asılıdır. İqtisadiyyatın əsas vəzifəsinin yerinə yetirilməsi iqtisadi siyasətin uğurlu olmasından asılıdır.

## *Mövzu 3. İqtisadiyyatın əsasları. İqtisadiyyatın əsas ünsürləri və baza kateqoriyaları. İqtisadi seçim.*

**1.Resursların məhdudluğu və tələbatların sonsuzluğu problemi.**
**2.İqtisadi tələbatlar və onların təsnifatı. İqtisadi nemət, məhsul, xidmətlər.**
**3.İqtisadi resurslar və onların növləri.**
**4.İqtisadi seçim. İstehsal imkanları əyrisi. Alternativ xərjlər.**
**5.Əmək prosesinin sadə momentləri. Məhsuldar qüvvələr və istehsal münasibətləri.**

### *1.Resursların məhdudluğu və tələbatların sonsuzluğu problemi.*

Hər bir iqtisadi fəaliyyət müvafiq tələbatın müəyyənləşdirilməsindən başlanır. Mövcud dövr çərçivəsində tələbatların nisbi və müvəqqəti ödənilməsi mütləq olaraq sonradan onlarınyenidən bərpası, istehsalı, genişlənməsi, mürəkkəbləşməsi (çətinləşməsi) və dərinləşməsi baş verir. Belə vəziyyət daimi olaraq qalır. Digər tərəfdən, tələbatların (resurslar və texnologiyalar) ödənilməsi üçün bizim vasitələrimiz praktiki şəkildə həmişə məhduddur. Bu məhdudluq müxtəlif ola bilər.

Hər şeydən əvvəl, bu təbiətdə mövcud olan müxtəlif nemətlər miqdarının təbii bərabərsizliyidir ki, bunlardan da bir sırası digərlərinə nisbətən az yayılmışdır. Məhdudluq, həmçinin insanların yaratdığı nemətləri də əhatə edir. Bu, hazırki anda nəinki nemətlərin mövcud növ ehtiyatlarına, həm də indiki şəraitdə onların təkrar istehsalı üçün mövcud olan imkanlara (deməli, həm də vasitələrə də) da aiddir. Onların ehtiyatlarını doldurmaq imkanından asılı olaraq nemətlər təkrar istehsal olanlara və təkrar istehsal olunmayanlara bölünür.

Nemətlərin əksəriyyəti nadirdir, yəni bu nemətləri yalnız digər nemətlərdən imtina etmək yolu ilə əldə etmək olar. Nemətlərin nadirliyi və məhdudluğu – eyni şey deyildir. Nemət o zaman nadir olur ki, onlara olan tələbat bu nemətlərdən başqa onları da üstələyir.

Mövcud istehlakçıda olan nemət ehtiyatları hər hansı bir tələbatın tam ödənilməsi üçün çatmaya bilər ki, bu da tez-tez baş verir. Lakin, hətta təsəvvür etsək ki, bu konkret dar çərçivədə müəyyənləşdirilmiş tələbat hazırki dövrdə tam ödənilmişdir, bu halda da tam aydın olasaq ki, nəzərdən keçirilən iqtisadi subyektdə eyni zamanda mövcud olan həmin vəsaitlərin istifadə edilməsi hesabına tam dolğun ödənmiş təlabat kimi ödənilə biləsi bütün yerdə qalan tələbatlar da ödənməmiş qaldı. Nemətlərə olan tələbata nəzərən onların məhdudluğu nemətlərin kifayətsizliyini xarakterizə edir.

Nəticədə nadirlik və çatışmazlıq nemətlərin məhdudluğunun müxtəlif tərəfləri kimi üzə çıxır. Nemətlərin, o cümlədən də resurs və texnologiyaların məhdudluğu isə insanların iqtisadi həyat fəaliyyəti sahəsinə daxil olan nemətlərin, praktiki, universal xassəsidir.

### *2. İqtisadi tələbatlar və onların təsnifatı. İqtisadi nemət, məhsul, xidmətlər.*

İqtisadiyyatın ilkin tərifi ona əsaslanır ki, insanların iqtisadi fəaliyyəti mövcud resursların istifadə edilməsi əsasında onların tələbatlarının ödənilməsinə yönəldilmişdir.

Təlabatlar iqtisadi fəaliyyətin ilkin nöqdəsidir, onların ödənilməsi isə – son nəticədir.

Təlabatları daimi ödəmək zərurəti – insan cəmiyyətinin, hər bir insanın xüsusiyyətidir. Təlabatlar cürbə-cürdürdür. Onları müxtəlif meyarlar üzrə təsnifləşdirmək olar.

Yaşayış vasitələrinə, yaxud insanların həyatı vacib təlabatlarını ödəyən nemətlərə (qidaya, geyimə, mənzilə və s.) təlabatlar.

İnsan həyatının sosial-mədəni vasitələrinə (təhsilə, mədəniyyətə, asudə vaxta) təlabatlar.

Fəaliyyət vasitələrinə (əmtəələrin, xidmətlərin, və s. istehsalı üçün əşyalar) təlabatlar.

Sosial cəhətdən nüfuzlu nemətlərin (turizm xidmətləri, zinət əşyaları və s.) ödənilməsinə tələbat.

Digər təsnifatlar da mümkündür: tələbatların ödənilmə növü üzrə (fərdi, kollektiv), ödənilmənin alternativliyi üzrə və s.

İqtisadiyyat nöqteyi nəzərdən tələbatların prinsipial xassəsini xüsusilə qeyd etmək vacibdir – cəmiyyət inkişaf etdikcə onların strukturu, keyfiyyət və kəmiyyətinin arması və daima dəyişməsi baş verir. Yeni tələbatların meydana çıxması ilə yanaşı köhnələr yox olub gedir, tələbat növləri arasında nisbət dəyişilir və i.a. Bu tələbatların artması qanununda öz əksini tapır.

Nemət – özündə müəyyən müsbət məna daşıyan, insanın bu və ya digər tələbatını ödəyən və onların maraqları, məqsədləri və səylərinə cavab verən hər bir şey: əşya, hadisə, əmək məhsuludur.

İqtisadi ədəbiyyatda nemətin başqa tarifləri də var. Məsələn, nemət deyəndə, A.Marşall bizim istədiyimiz hər bir şeyi və ya insanın təlabatlarını ödəyən əşyaları başa düşürdü. Bu tərifdə nemətlər yalnız əşyalar, predmetlərlə məhdudlaşır.

Bəzən nemətlər faydalılığın təzaşürü kimi nəzərdən keçirilir ki, bu da yalnız əməyin məhsulu deyil, həm də təbiətin barı ola bilər.

İnsanlara lazım olan və rolu get-gedə artan nemətlər arasında xüsusi yeri xidmətlər tutur.

Xidmətlər – nəticəsi faydalı effekt olan, insanın hər hansı tələbatlarını ödəyən məqsədəuyğun insan fəaliyyətidir.

Nemətlərin başa düşülməsində onların təsnifatının böyük əhəmiyyəti var.

Nemətlərin müxtəlif qruplara (növlərə) bölünməsi üçün çoxlu meyarlar var.

Nemətlərin maddi və qeyri-maddilərə bölünməsi daha geniş yayılmışdır.

Maddi nemətlər – təbiətin təbii bəxşişləri(torpaq, hava, iqlim), istehsal məhsullarıdır (ərzaq məhsulları, tikililər, maşınlar, alətlər və s.). Maddi nemətlərə hərdən maddi nemətlərin mənimsənilməsilə əlaqədar olan münasibətlər də (patentlər, müəllif hüququ, girov kağızı) aid edilir (məsələn A.Marşall). Bununla da bir qrupda müxtəlif səciyyəli nemətlər – bir qismi faydalılığına görə – birləşdirilir.

Qeyri-maddi nemətlər – insanın qabiliyyətlərinin inkişafına təsir edən nemətlərdir, onlar qeyri-istehsal sahələrində: səhiyyə, təhsil, incəsənət, kino, teatr, muzeylər və b.k. yaradılırlar.

Qeyri-maddi nemətlər iki yarımqrupa bölünür:

Daxili – insana təbiət tərəfindən verilmiş və insanın öz iradəsiylə özündə inkişaf etdirdiyi (səs – oxuma, deklamasiya; musiqi duyumu – musiqiçi; elmə qabiliyyət və b.k.);

Zahiri - bu, tələbatları ödəmək üçün zahiri aləmin verdikləridir (imic, işgüzar əlaqələr, himayə və s.)

Qeyd olunan nemətlər qruplarından başqa cari və gələcək, bilavasitə və dolayı, uzunmüddətli və qısamüddətli və s. nemətlər də nəzərdən keçirilir.

Nemətlərin iqtisadi və qeyri-iqtisadiyə bölünməsinin xüsusi əhəmiyyəti var.

İqtisadi nemətlər (bu məfhum iqtisad elminin subyektivçilik məktəbinə, onun nümayəndəsi məşhur İtaliya iqtisadçısı A.Rezentiyə məxsusdur) iqtisadi fəaliyyətin obyekti və ya nəticəsidir, yəni ödənilməsi tələbatdan məhdud həcmdə alınması mümkün olanlardır. Qeyd edək ki, iqtisadi nemətlərin məhdudluğu (nadirliyi) şəraitində insanın müvafiq davranışını (təsərrüfatçılıq, istehsal fəaliyyəti) müəyyənləşdirən nemətin nadirliyi problemi ilə bağlıdır.

Qeyri - iqtisadi (havayı) nemətlər təbiət tərəfindən insan səy göstərmədən verilir. Bu nemətlər insanın müəyyən tələbatlarını (hava, su, işıq və.b.k.) tam və daim ödəmək üçün kifayət qədər təbiətdə «azad» mövcuddur.

Beləliklə, məhz nemətə olan tələbat (və ya Avstriya məktəbinin görkəmli nümayəndəsi K.Mengerin sözlərilə «gərəklik») və onun əldə oluna biləcək miqdarı arasındakı nisbət onu iqtisadi və ya qeyri-iqtisadi edir.

### *3. İqtisadi resurslar və onların növləri.*

Tələbatların artması və dəyişilməsi onların ödənilməsi üçün nəzərdə tutulan nemətlərin yaradılması üçün güclü sövqedici motivdir.

Tələbatların daimi ödənilməsi üçün imkanlar ölkə, cəmiyyət, ayrı-ayrı insanlarda məhz resursların olması sayəsində yaranır.

Resurslar – nemətlərin yaradılması və tələbatların ödənilməsi üçün olan imkanlardır.

Resurslar cürbəcürdür və müxtəlif cür təsnifləşdirilə bilər.

Təbii resurslar, yəni cəmiyyətdə faydalı qazıntı ehtiyatları, kənd təsərrüfatı üçün əlverişli şərait, sərfəli coğrafi vəziyyət.

İstehsal fəaliyyəti və istehlak üçün əvvəlki nəsillər tərəfindən yaradılmış və toplanmış resurslar, (maddi resurslar) yaxud mövcud müəssisələr, nəqliyyat sistemləri yaşayış evləri və s.

Maddi resurslara istehsal prosesinin (əmək vasitələri və əmək predmetləri) nəticəsi olan istehsal vasitələri daxildir.

Özünün təcrübə, ixtisas, təhsil səviyyəsi, eləcə də sahibkarlıq qabiliyyətləri olan insan resursları.

Yuxarıda göstərilən resurs növləri tarixən daha qısa adlanırdı: torpaq, kapital, əmək və sahibkarlıq qabiliyyətləri.

Maliyyə resursları cəmiyyətin istehsal prosesini həyata keçirmək üçün ayırdığı pul vəsaitləridir. Onların mənbələrinə investisiya vasitələri, qiymətli kağızlar, pul yığımları, dövlət istiqrazları daxildir.

İnformasiya resursları - avtomatlaşdırılmış istehsalın fəaliyyəti və onun kompyuter texnikasının köməkliyi ilə idarə edmək üçün zəruri olan məlumatlardır.

Resursların digər təsnifatı da mümkündür, məsələn, hazırki dövrdə onların istifadə edilməsi, qarşılıqlı əvəz edilməsi, tükənməzlik və qeyri-tükənməzlik imkanlarının alternativliyi üzrə və s. Lakin təsnifat tipindən asılı olmayaraq bütün resurslar ümumi cəhətə malikdir: onlar iqtisadi fəaliyyətin çıxış və əsas ilk zəminini səciyyələndirirlər: zəruri kefiyyətli və müxtəlif resursların olması nemətlərin yaradılması və deməli, tələbatların ödənilməsi üçün ilkin şərtdir.

Təbii, material və əmək resursları hər bir cəmiyyətə xasdır. Bazar iqtisadiyyatı onlara maliyyə resurslarını əlavə edir. Müasir postsənaye bazar iqtisadiyyatı elmi-texniki inqilab şəraitində mühüm rol oynayan informasiya resursları mövcud ola bilməz.

İqtisadi nəzəriyyədə resursların mütləq və nisbi məhdudluğu fərqləndirilir. Mütləq məhdudluq dedikdə, eyni zamanda cəmiyyət üzvlərinin bütün tələbatlarının ödənilməsi üçün istehsal resurslarının kifayət olmaması başa düşülür. Lakin tələbatlar dairəsi azaldılarsa, mütləq məhdudluq nisbi məhdudluğa çevrilir, çünki məhdud tələbatlar üçün resurslar nisbətən tükənməzdir.

Mütləq məhdudluq əsasən təbii və əmək resursları üçün nisbi isə maddi , maliyyə, informasiya resursları üçün səciyyəvidir.

## *4.İqtisadi seçim. İstehsal imkanları əyrisi. Alternativ xərjlər.*

Tələbatların ödənilməsi vasitələrinin məhdudluğu zamanı tələbatların müxtəlifliyi ona gətirib çıxarır ki, əslində onların heç də hamısı və çox ehtimal ki, tam səviyyədə ödənilə bilməyəcək. Deməli, hər bir iqtisadi fəaliyyət faktiki olaraq hazırkı anda ödənilməli olan tələbatın – bütün mümkün olanlarından birinin, yaxud bir neçəsinin seçilməsi deməkdir. Eyni zamanda artan tələbatların ödənilməsi möcud resurs texnologiyalarla məhdudlaşır. Bu o deməkdir ki, iqtisadi qərarların qəbul edilməsi problemi, əslində iqtisadi fəaliyyətlərin alternativ variantlarından birini seçmə problemidir. Bu, yalnız o halda yaranır ki, indiki iqtisadi subyekt üçün nəinki real imkan, həm də alternativ variantlar arasında seçmək zərurəti mövcud olur.

Eyni zamanda həmin fəaliyyət hazırki vəziyyətdə bütün yerdə qalan tələbatların ödənilməsindən imtina etmək deməkdir. Bununla yanaşı hər bir iqtisadi fəaliyyət məhdud resursların ehtiyatlarının müəyyən hissəsinin sərfi və deməli, yerdə qalan tələbatların ödənilmə imkanlarının ixtisarı deməkdir. Deməli, müəyyən tələbatların ödənilməsinə resursların müəyyən miqdarının ayrılması bu resursların digər tələbatların edənilməsi üçün istifadə edilməsindən imtina ilə və həm də mövcud tələbatların ödənilməsinin bəzi məhdudiyyətləri ilə əlaqədardır. Beləliklə, seçmə probleminin əks tərəfi qənaət və səmərəlilik – hazırkı iqtisadi subyektin digər tələbatlarının ödənilməsi imkanının təmin edilməsi ilə mövcud tələbatın ödənilməsinə vəsaitin məhdud və düşünülmüş şəkildə ayrılması problemidir.

Variantlardan birini seçərək, biz faktiki olaraq digər (alternativ), daha yaxşı variantdan imtina edirik. Ona görə də seçim həmişə müəyyən qurbanlarla bağlıdır ki, bunlarda alternativ xərclər adlandırılır. Alternativ xərclər – mövcud resursun istifadə edilmə imkanlarının seçimi nəticəsində rədd edilənlərdən ən dəyərlisinin qiymətləndirilməsidir. Rədd edilən variantın subyektiv qiymətləndirilməsi şəklində çıxış edərək, alternativ xərclər yalnız seçimi həyata keçirən şəxsin şüurunda mövcud olur. Onlar – dəyərdir ki,onu daha böyük dəyərə görə qurban vermişlər. Alternativ xərclər yalnız seçim anında mövcud olur və bu seçimin həyata

keçirilməsindən sonra yox olurlar. Bununla əlaqədar olaraq onlar seçim nəticəsində yarana bilən xərclər deyil, seçimi şərtləndirən xərclərdir.

Alternativlik prinsipinin təzahür edilməsinin və bununla bağlı xərclərin əyani təsviri aşağıdakı şəkildə verilən istehsal imkanlarının modeli ola bilər. İqtisadiyyatı biri istehsal vasitələrini, digərisi isə – istehlak əşyalarını istehsal edən iki bölmə şəklində təsəvvür edək. Məhdud resurslara malik olaraq, iqtisadiyyat hər bir mövcud dövrdə istehsal vasitələri və istehlak əşyalarının yalnız müəyyən miqdarının buraxılışını həyata keçirə bilər. Bütün mövcud resursların tam istifadəsi zamanı onun istehsal imkanlarının sərhədləri ABCDE əyrisi ilə əks olunacaq. İstehsal imkanlarının sərhədi onların istifadə edilməsinin mövcud texnologiyaları zamanı nadirliyin iqtisadi probleminin təsviri metodu olaraq, bütün resursların tam istifadəsi şərtilə nemətlərin buraxılmasının maksimal dərəcədə nail oluna bilən həcmlərini göstərir. Əyrinin özü istehsal imkanlarının sərhədlərini  əks etdirdiyi zaman, bu əyridə hər bir nöqtə istehsal edilən nemətlərin müəyyən dəstini əks etdirəcək. Hazırkı istehsal imkanları çərçivəsində istehsal edilən nemətlərin dəstləri müxtəlif ola bilər, məsələn; $Y^1$ istehsal vasitələrini  və $X^1$ istehlak əşyalarını daxil edən ***D,*** yaxud  $Y^2$ istehsal vasitələrini və $X^2$  istehlak əşyalarını əşyalarını daxil edən ***C.***

Bu və ya digər dəstin seçimi – hazırki dövrdə cəmiyyətin subyektiv üstünlüklərini əks etdirən qərardır. Ona diqqət yetirmək vacibdir ki, istehsal vasitələrinin istehsalının $Y^1$- dən  $Y^2$-ə kimi artırılması yalnız istehlak əşyaları istehsalının  $X^1$-dən  $X^2$-ə  kimi azaldılması şərtilə mümkündür. Başqa sözlə, istehsal vasitələri buraxılışının $\Delta Y= Y^2 - Y^1$ qədər artırılması istehlak şeyləri buraxılışının  $\Delta X=X^1 - X^2$ kimi ixtisarı ilə şərtlənmişdir ki, bunu da istehsal vasitələri buraxılışının artırılması naminə qurban vermək lazım gəlir. İstehlak şeyləri istehsalı həcminin $\Delta X$ qədər ixtisarı – istehlak şeyləri həcminin bəzi ixtisarları şəklində xərclər formasını alan istehsal vasitələri buraxılışının artırılmasının alternativ xərclər kəmiyyətidir. Bu xərclər istehsal vasitələri buraxılışının artırılması ilə bağlı resursların sərf edilməsi deyil, istehlak şeylərinin həcmidir. ki, bunlar da istehsal vasitələrinin istehsalına yönəldilən resurslar hesabına istehsal edilə bilərdi.




**Şəkil 1.2. İstehsal imkanlarının sərhədi**

İki nemət istehsalının eyni zamanda artması, məsələn, ***D*** nöqtəsindən  ***K*** nöqtəsinə keçmə iki üsulla mümkündür: tətbiq edilən resurs həcminin artırılması (yeni torpaqların mənimsənilməsi, qazıntıların yeni yataqlarının istismara verilməsi, əlavə işçi qüvvəsinin istehsala cəlb edilməsi), eləcə də bu resursların istifadəsi üzrə daha təkmil istehsal aparatının tətbiq edilməsi yolu ilə (daha səmərəli texnika və texnolojiyaların tətbiq edilməsi). Bu istehsal imkanları sərhədinin, məsələn, ***MKN***–ə kimi genişlənməsində istifadə olunacaq.

### *5. Əmək prosesinin sadə momentləri. Məhsuldar qüvvələr və istehsal münasibətləri.*

İstehsal prosesində məhsulun yaradılması üçün resursların (əməyin, istehsal vasitələrinin, texnologiyaların, torpağın) istifadəsi baş verir. İstehsal prosesində resurslar istehsal amilləri, yaxud məhsulun yaradılması amilləri kimi çıxış edir.

Əmək prosesinin əsas elementləri bunlardır: əmək, əmək cisimləri və əmək vasitələri.

Əməyin ümumi məzmunu insanların onlardan səy, iradə və enerji məsrəfləri tələb edən şüurlu, məqsədəuyğun istimai fəaliyyətindən ibarətdir.

Əmək insanın öz iş qüvvəsinin cəmiyyətə xas olan müxtəlif tələbatlarını ödəmək məqsədilə təbiətin formalarının dəyişdirilməsinin məqsədəuyğun sərfidir.

Əməyin özü və əmək qabiliyyəti yalnız insana xasdır, lakin bunlar müxtəlif anlayışlardır və onları qarışdırmaq olmaz. Hər bir insan iş qüvvəsinə malikdir. Lakin o həmin qüvvədən istifadə etməzsə, onda əmək prosesi baş verməz.

İş qüvvəsi insanın məhsul hazırlanması və ya maddi nemətlər istehsalı üçün istifadə olunan fiziki və mənəvi qabiliyyətlərinin xüsusi məcmusudur.

Əmək cisimləri insanın əməyi yönəldilən şeylərdir və məhz bu da gələcək hazır məhsulun maddi əsasını təşkil edir. Əmək cisimləri ya təbiətin özü tərəfindən verilir (məsələn: filiz yatağı), yaxud əvvəlki əməyin məhsulu, yəni xammal kimi olur. Sonuncu özündə əsas xammalı (bilavasitə istehsal vasitələrinin hazırlandığı cisimlər) və yardımçı materialları (məhsulun hazırlanmasında istifadə olunan şeylər, məsələn, tikiş sənayesində bunlar rənglər, saplar və s. ola bilər) ehtiva edir.

Elmi-texniki tərəqqi nəticəsində insan əvvəlcədən verilmiş xassələri olan və təbiətdə mövcud olmayan əmək cisimləri hazırlayır. Təbiət, torpaq, yerətrafı məkan da daxil olmaqla geniş mənada bütövlükdə bizi əhatə edən aləm ümumi əmək cismini təşkil edirlər. Xammalın istehsalda rolu artır, lakin əmək cisimlərinin ilkin əsası yenə də torpaqdır.

Təbiiət maddəsinin hazır məhsula çevrilməsi üçün o bir və ya bir neçə mərhələdə emal olunmalı, yarımfabrikata çevrilməlidir. Hazır məhsuldan (əməyin bitkin, istehlaka hazır nəticəsi) fərqli olaraq, yarımfabrikat istifadəyə yararlı hazır məhsul olmaq üçün hələ emal olunmalı olan əmək məhsuludur.

Əmək vasitələri insanın özü ilə əmək cismi arasında yerləşdiyi əşya və ya əşyalar kompleksi; hazır məhsulu yaradarkən insanın əmək cisminə təsir etdiyi şeylər; əmək vasitələri istehsalın inkişaf səviyyəsinin ən mühüm göstəriciləridir.

Maddi əmək vasitələri təbii (torpaq, dəyənək, daş və s., əhliləşdirilmiş ev heyvanları, üzvi gübrələr, həmçinin işçinin bədən üzvləri) və texnikiyə (yəni insan tərəfindən süni yaradılanlar) bölünürlər.

Texniki əmək vasitələrinə əmək vasitələri – müxtəlif maşınlar, mexanizmlər, qurgular, alətlər, mühərriklər, ötürücü qurgular daxildir. Maşın istehsalı şəraitində mexaniki əmək vasitələri üç tərkib hissədən: işçi maşın, mühərrik, ötürücü qurğudan ibarət maşın sisteminə çevrilmişlər. Elmi-texniki inqilab (ETİ) maşın sisteminə dördüncü hissəni – maşın sisteminin idarə edilməsi üzrə zehni əmək vəzifəsini yerinə yetirən idarəedici qurğunu əlavə etdi. Get-gedə kibernetik adlandırılan texnika tətbiq olunur ki, onun bütün başqa maşınlardan əsas fərqi ondadır ki, o, enerjini (fiziki maşınlar kimi) və ya maddəni (kimyəvi kimi) deyil, informasiyanı emal edir. Robototexnika geniş yayılır. İstehsalın kompyuterləşməsi və avtomatlaşdırılması insanın rolunu dəyişir.: o tədricən bilavasitə istehsal prosesindən çıxış və onunla yanaşı dayanır.

Vəhdətdə götürülən əmək vasitələri və əmək cisimləri istehsal vasitələrini təşkil edir. İstehsalın bütün mövcud amillərinin qarşılıqlı təsiri nəticəsində məhsulun yaradılması texnologiya ilə, yəni informasiya imkanlarını daxil etməklə məhsul istehsalı üsulları və istehsalın idarə edilməsinin xüsusi sistemini nəzərdə tutan istehsalın təşkili ilə vasitəlidir.

İstehsalın nəticə etibarilə səmərəliliyi resursların keyfiyyətindən, onların kombinasiyası və istehsalın təşkili formalarından asılıdır. İstehsalın nəticə etibarilə səmərəliliyi nöqteyi-nəzərindən resurslar məhsuldar qüvvələr kimi səciyyələnir.

Məhsuldar qüvvələr - məhsul istehsalının yaradılması və artırılmasının cəmiyyətin mövcud resurslarında olan imkanlarıdır. Məhsuldar qüvvələrin inkişafı – məhsul və sərvətin daimi artmasının əsasıdır.

Həyat fəaliyyəti prosesində insanlar arasında iqtisadi, siyasi, hüquqi, sosial, etik münasibətlər yaranır ki, bunlar da cəmiyyətin sistemli qarşılıqlı əlaqələrini əks etdirirlər. İstehsal münasibətlərə maddi nemət və xidmətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı ilə bağlı münasibətlər daxildir.

Məhsuldar qüvvələr ictimai istehsalın aparıcı tərəfidir. Məhsuldar qüvvələrin hər bir inkişaf mərhələsinə (marksizmə görə) onların sosial-iqtisadi hərəkət formaları kimi çıxış edən müəyyən istehsal münasibətləri müvafiqdir.

İstehsal və ya iqtisadi münasibətlər cəmiyyətin iqtisadi təşkilinin əsasını əmələ gətirirlər, məhsuldar qüvvələr ilə birlikdə isə sistemlərin spesifik forma və növlərini müəyyənləşdirirlər.

## *Mövzu 4. İqtisadi sistemlər. Qarışıq iqtisadiyyat.Milli iqtisadiyyat.*

**1.İqtisadi sistem anlayışı və onun ünsürləri.**
**2.İqtisadi sistemlərin əsas problemləri.**
**3.İqtisadi sistemlərin təsnifləşdirilməsi meyarları və tipləri.**
**4.İqtisadi sistemlərin təsnifatı.**
**5.Milli iqtisadiyyat. Qarışıq iqtisadi sistem və onun modelləri.**

### *1. İqtisadi sistem anlayışı və onun ünsürləri.*

İqtisadi sistem – maddi və qeyri-maddi nemət və xidmətlər istehsalçıları və istehlakçıları arasındakı xüsusi şəkildə nizamlanmış əlaqələr sistemidir.

İqtisadi sistemdə təsərrüfat fəaliyyəti həmişə bu və ya digər şəkildə təşkil olunmuş, əlaqələndirilmiş olur.

İnsanların iqtisadi fəaliyyətinin iki əlaqələndirilmə üsulunu nəzərdən keçirir. Birincisi məcbur etmə ilə müşayiət olunan mərkəzləşdirilmiş rəhbərlik və ya iyerarxiyadır; ordunun, müasir totalitar dövlətin metodları belədir. İkinjisi fərdlərin könüllü əməkdaşlığı, və ya spontan, kor-təbii nizamdır; burada fəaliyyətə əsas siqnal qiymətlərdir. Resurslara və əməyin nəticələrinə qiymətin enməsi və ya qalxması təsərrüfatçılara hansı istiqamətdə hərəkət etmək lazım olduğunu göstərir.

İqtisadi sistem anlayışı müxtəlif iqtisadçılar tərəfindən müxtəlif cür şərh edilir.

-»İqtisadi sistem- müəyyən joğrafi ərazi hüdudlarında istehsal, gəlir və istehlakla bağlı qərarların qəbul edilməsi və həyata keçirilməsi ilə bağlı mexanizmlər və institutların cəmidir» . (P.Qreqori,R.Styuart)

-»İqtisadi sistem - özündə iqtisadi davranış və nəticələrə bilavasitə və ya dolayısı ilə təsir edən bütün institutlar, təşkilatlar, qanun və qaydalar, ənənələr, mövqelər, dəyərləndirmələr, qadağalar və davranış sxemlərini əhatə edir». (F.Prayor)

İqtisadi sistemin ümumi ünsürləri:

<u>***Məhsuldar qüvvələr***</u>

| | | |
|---|---|---|
| Təbii: təbii resurslar, insanın imkanları və s. | İctimai: istehsal vasitələri, əmək bölgüsü və s. | Ən ümumi: elm, təhsil, mədəniyyət və s. |

<u>***İstehsal münasibətləri***</u>

| | | |
|---|---|---|
| Sosial iqtisadi (mülkiyyət münasibətləri) | Təşkilati - iqtisadi (təcrübə mübadiləsi, marketinq, menecment və s.) | Texniki - iqtisadi |
| Resurslar, əmək, təbii, | İctimai əmək bölgüsü: | Əmək prosesi və onun |

| | | |
|---|---|---|
| istehsalvasitələri, elmi-texniki təhsil və s. | istehsalın məhsul hazırlanması üzrə ixtisaslaşması | tərkib hissələri: əmək, əmək vasitələri, əmək cisimləri |
| İstehsal imkanları: məhdud resurslardan seçim | Nəticələr: maddi-əşyavi məhsul, xidmətlər | Səmərəlilik: nəticələrlə xərclərin nisbəti |

## 2. *İqtisadi sistemlərin əsas problemləri.*

Seçim probleminin mahiyyəti ondadır ki, çoxsaylı tələbatları ödəmək üçün istifadə olunan hər bir amil məhdud olsa da, ondan alternativ istifadə və istehsal amillərinin daha yaxşı uzlaşdırılması problemi həmişə mövcuddur.

İqtisadiyyatın əsas problemləri:

1.Tələbatların sonsuzluğu (Fiziki,mənəvi,sosial)

2.Resursların məhdudluğu (əmək,torpaq,kapital)

3. Resursların səmərəli bölüşdürülməsi və istifadəsi

4.Seçim problemi:

- Nə istehsal etmək? - Müəyyən dövrdə hər hansı iqtisadi sistemində mümkün məhsul və xidmətlərdən hansılar istehsal olunmalıdır.
- Necə istehsal etmək? - Hansı taxnologiyadan istifadə yolu ilə istehsal olunmalıdır.
- Kimin üçün istehsal etmək? - İstehsal olunacaq məhsul və xidmətləri kim alacaqdır.

Təsərrüfat sisteminin xüsusiyyətləri, bir tam kimi, onun tərkibinə daxil olan quruluş elementləri xüsusiyyətlərinin sadəcə cəmi ilə eyni deyil. Yeni keyfiyyətlər, yeni xüsusiyyətlər meydana gəlir. Sistem daim inkişafdadır və müəyyən xüsusiyyətlərə malikdir: bütövlük, nizamlılıq, sabitlik, dəyişkənlik, dözümlülük, çeviklik, ziddiyyətlilik.

## 3. *İqtisadi sistemlərin təsnifləşdirilməsi meyarları və tipləri.*

İqtisad elmi tarixinin göstərdiyi kimi, iqtisadi sistemlərin təsnifatlaşdırılması müxtəlif meyarlar (əlamətlər) əsasında aparıla bilər.

Bu çoxluğun əsasında iqtisadi sistemlərin xassələrinin obyektiv müxtəlifliyi durur.

İriləşdirilmiş şəkildə iqtisadi sistemlərin meyarlarını üç qrupa bölmək olar:

1.Predmetəmələgətirən meyarlar– iqtisadi nəzəriyyənin predmetini əmələ gətirən struktur elementlər tərəfindən meyarlardır. Belələrinə funksional iqtisadi əlaqələr, istehsal münasibətləri (hər şeydən əvvəl, mənimsəmə münasibətləri kimi başa düşülən), institutlar aiddir.

Müvafiq olaraq, iqtisadi sistemlər funksional əlaqələr, istehsal münasibətləri və institusional sistemlərə bölünür.

2.Sosial-iqtisadi meyarlar- iqtisadi sistemin başlıja məzmun tərəflərinin ayrıl-masına əsaslanan meyarlardır. Onların arasında: istehsal və istehlakın birləşməsi üsulu (iqtisadi fəaliyyətin koordinasiyası üsulu); bilavasitə istehsalçıların istehsal vasitələri ilə birləşməsi üsulu (mülkiyyətin tipi); sosial-mədəni amilin rolu, sənaye və iqtisadi əsasların inkişaf dərəcəsi.

Müvafiq olaraq, iqtisadi sistemlər təsərrüfatçılıq formaları, eləcə də formasiya, sivilizasiya və texnoloji əlamətləri üzrə bölünür.

3.Həcm və dinamik meyarlar– sistemin mürəkkəbliyi və onun dəyişkənliyini səciyyələndirən meyarlardır. Onların arasında sistemin eyniliyi və ya müxtəlifliyi, sistemin statikliyi və ya dinamikliyi vardır.

Müvafiq olaraq, iqtisadi sistemlər «xalis» və «qarışıq», statik və tarixən inkişaf edənlərə bölünə bilər.

*4. İqtisadi sistemlərin təsnifatı.*

İqtisadi ədəbiyyatlarda təsərrüfat (iqtisadi) sistemlərinin inkişaf təmayüllərinə baxışlar müxtəlifdir. İqtisadçıların bir qismi hesab edir ki, sistemin inkişafının həlledici təmayülü eyniliyə, bütün quruluş elementlərinin unifikasiyasına yönümlənmiş inkişafdır.

Müasir dünya ən müxtəlif iqtisadi sistemlərin mövcudluğu ilə səciyyələnir, onlar bu və ya digər tarixi şəraitdə yaranaraq dəyişilməz qalmayıb, daim inkişaf etmişdilər. Cəmiyyət həyatındakı bu və ya digər hadisəni daha yaxşı başa düşmək üçün onu hər hansı bir xalqda və hər hansı bir dövrdə deyil, tarixi prosesdə nəzərdən keçirmək, yəni onu dəyişkən, formalaşan, müəyyən inkişaf fazaları, mərhələləri keçən bir şey kimi aydınlaşdırmaq lazımdır.

Müasir dünya cəmiyyətin təbii tarixi inkişafının nəticəsidir. Tarixi prosesin ayrı-ayrı iqtisadçı alimlər tərəfindən dərki fərqlidir və bu həmin prosesin xarakteristikası üçün müxtəlif meyarlardan istifadə olunmasıdır.

Bizə ən çox məlum olan ictimai həyatın hadisə və proseslərinin əsasında duran formasiya yanaşmasıdır. V.Zasuliçə məktubunda K.Marks üç böyük formasiya olduğunu göstərir:

1) ilkin (arxaik), o bura ibtidai-icma və Asiya istehsal üsullarını aid edirdi;
2) ikinci, xüsusi mülkiyyətə söykənən (quldarlıq, təhkimçilik, kapitalizm);
3) kommunist.

Formasiya yanaşması cəmiyyətin tarixi inkişafında qanunauyğun mərhələləri aşkarlamağa və həlledici rolun bilavasitə istehsal prosesinə və ya istehsal üsulüna məxsus olması fikrinə əsaslanaraq maddi istehsalın beş üsulunu (ibtidai-icma, quldarlıq, feodal, kapitalist və kommunist) fərqləndirməyə imkan verdi.

XX əsrin əvvəllərində K.Byuher (1906) jəmiyyətdə istehsalla istehlak arasındakı əlaqənin xarakteri əsasında aşağıdakıları fərqləndirirdi:

- qapalı ev təsərrüfatı – yaradılan nemətlərin hamısı mübadiləsiz təsərrüfatın özündə istehlak olunur;
- şəhər təsərrüfatı – bilavasitə mübadiləyə yer var, nemət istehsalçı təsərrüfatdan istehlakçı təsərrüfata keçir;
- xalq təsərrüfatı – istehlaka çatmazdan öncə nemət əmtəə-pul mübadiləsi əsasında bir sıra təsərrüfatdan keçir.

Dünya iqtisadi ədəbiyyatında təsərrüfat sistemlərinin iki əlamətə görə təsnifatı daha geniş yayılmışdır:

- istehsal vasitələrinin mülkiyyət fomasına;
- iqtisadi fəaliyyətin koordinasiya və idarə edilməsi üsuluna görə.

Bu əlamətlərə əsasən fərqləndirirlər:

- amirlik (komanda) və ya totalitar iqtisadiyyat, burada müəssisələrin çoxu dövlət mülkiyyətində olur və öz fəaliyyətini dövlət direktivləri əsasında həyata keçirir: cəmiyyətdə nemətlər və xidmətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı barədə bütün qərarlar dövlət tərəfindən qəbul olunur. Bura SSRİ, Albaniya və b. aiddir;
- bazar iqtisadiyyatı və ya azad rəqabət dövrü kapitalizmi – resurslar üzərində xüsusi mülkiyyətlə, bazar və qiymətlər sistemindən iqtisadi fəaliyyəti tənzimləmək və idarə etmək üçün istifadə ilə səciyyələnir. Azad bazar iqtisadiyyatında resursların bölüşdürülməsində dövlət heç bir rol oynamır, bütün qərarlar bazar subyektləri tərəfindən, bütün məsuliyyəti özləri daşımaqla, müstəqil qəbul edilir. Bazar iştirakçıları öz şəxsi maraqlarından çıxış etsələr də, onların fəaliyyəti, A.Smitin sözlərinə görə, başqa insanların və bütövlükdə cəmiyyətin maraqolarını realizə etmək üçün «gözə görünməz» əllə (yəni rəqabətlə) istiqamətləndirilir. Buraya bu gün, məsələn, Honkonqu aid etmək olar;
- qarışıq iqtisadiyyat, burada bütün resursların və maddi nemətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakında dövlət bölməsi də, özəl bölmə də (müəssisələr və ev təsərrüfatı) mühüm rol oynayırlar; burada dövlət bazar iqtisadiyyatına müdaxilə edir, lakin bazarın tənzimləyiji rolunu heçə endirəcək dərəcədə yox. Bura inkişaf etmiş ölkələri, o cümlədən ABŞ, İngiltərəni, Fransanı, Almaniyvanı və b. aid edirlər.

*5. Milli iqtisadiyyat. Qarışıq iqtisadi sistem və onun modelləri.*

Milli iqtisadiyyat, yaxud milli iqtisadi sistem – ölkənin iqtisadi sistemidir ki, bu da amillərin (daxili Milli iqtisadiyyat və xarici, iqtisadi və qeyri-iqtisadi) bütün kompleksini və onun inkişaf və fəaliyyət məqsədlərini əks etdirir və onlarla şərtləndirilmiş ümumi iqtisadi qanunauyğunluqların reallaşma xüsusiyyətlərindən ibarətdir.

Milli iqtisadiyyatın inkişaf və fəaliyyətinin spesifik amillərinə təbii-iqlim, iqtisadi-coğrafi, texnoloji, sosial-mədəni xarakterli amilləri aid etmək lazımdır. Onlar, bir qayda olaraq, sabitlik və uzunmüddətliliklə fərqlənir və sürətli dəyişikliklərə məruz qalmırlar. Onların nəticələri iqtisadiyyat və ictimai məhsulun bu və ya digər strukturu, mülkiyyətin bu və ya digər strukturu, dövlətin bu və ya digər rolu, iqtisadiyyatın xarici aləmə açıqlığının bu və ya digər dərəcəsi, cəmiyyətdə sosial ədalətin bu və ya digər şəkildə anlaşılması, iqtisadi siyasətdə bu və ya digər prioritetlər və i.a.-dır.

Milli iqtisadiyyat hər hansı bir təsərrüfat forması, formasiya ilə və ya sənaye inkişafının dərəcəsi ilə əlaqədar deyil. O, daha çox bu və ya digər lokal sivilizasiyasının xüusiyyətlərinin iqtisadi ifadəsi olaraq, cəmiyyətin müxtəlif inkişaf mərhələlərində həyata keçirilir. İqtisadi cəhətdən inkişaf etmiş dövlətlərin müasir şəraitdə milli iqtisadiyyatı qarışıq iqtisadiyyatın milli modelləri formasında çıxış edir.

İki son əsrin hüdudunda meydana çıxan və sonralar geniş yayılan qarışıq iqtisadiyyat ideyaları sosial-iqtisadi həyatda xüsusilə müharibədən sonrakı dövrdə güclənən real dəyişiklikləri əks etdirirdi. Bu dəyişikliklər bazarla iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin, xüsusi sahibkarlıq və sosiallaşma prosesinin qarşılıqlı təsir formalarının mürəkkəbləşməsində, eləcə də postsənaye (postiqtisadi) özüllərin ictimai sistemlərin strukturuna getdikcə daha nəzərəçarpacaq dərəcədə nüfuz etməsində təzahür edirdi.

«Qarışıq iqtisadiyyat» termininin özünün birmənalı şərhi yoxdur. Onun ilk və ən geniş yayılmış şərhi iqtisadiyyatın (xüsusi və dövlət) müxtəlif bölmələrinin uyğunlaşmasına va mülkiyyət formalarının müxtəlifliyinə istinad edir. Keynsçilikdən təkan alan ikinci mövqe bazar (bazar mexanizmini) və dövlət tənzimlənməsinin uyğunluq problemini ön plana çəkir. Müxtəlif sosial- islahatçı cərəyanlarla təşəbbüs əldə edən üçüncü mövqe kapitala (xüsusi sahibkarlıq) sosiallığın (ictimaisosial zəmanətlərin) uyğunlaşmasına əsaslanır. Nəhayət, daha birn mövqe müasir cəmiyyət strukturunda iqtisadi və qeyri-iqtisadi zəminlərin nisbəti probleminə diqqəti cəlb edir.

Müasir şəraitdə qarışıq iqtisadiyyatın göstərilən şərhləri biri-birinə zidd deyil: onlar yalnız inkişaf etmiş iqtisadiyyatın müasir tipinin forma-əmələgətirməsinin bir neçə xətlərinin mövcudluğunu və onların vəhdətini əks etdirir. İnkişaf etmiş ölkələrin qarışıq iqtisadiyyatı bu gün göstərilən parametrlərin eyni zamanda uyğunluğudur, məhz iqtisadiyyatın xüsusi və dövlət bölmələrinin, bazar və dövlət tənzimlənməsinin, kapitalist elementləri və həyatın sosiallaşdırılması, iqtisadi və qeyri-iqtisadi zəminlərin uyğunluğudur.

İqtisadiyyatın qarşılıqlığı onun tərkibində nəinki müxtəlif struktur elementlərinin mövcudluğunu, həm də real iqtisadiyyatda onların uyğunluğunun konkret formalarının əmələ gəlməsini xarakterizə edir. Buna misal xüsusi dövlət səhmdar müəssisələri, dövlət orqanlarının xüsusi firmalarla müqavilə sazişləri, sosial tərəfdaşlıq və i.a. ola bilər.

Qarışıq iqtisadiyyatın modelləri. Amerika modeli– xüsusi mülkiyyətin, bazar rəqabət mexanizminin, kapitalist motivasiyalarının üstün rolunu, eləcə də sosial diferensiasiyanın yüksək səviyyəsini nəzərdə tutan liberal bazar – kapitalist modelidir. Alman modeli – rəqabət zəminlərinin genişləndirilməsini bazar və kapital qüsurlarını yumşaldan sosial infrastrukturun yaradılması, sosial siyasət subyektlərinin çoxtəbəqəli institusional strukturunun

formalaşdırılması ilə əlaqələndirən sosial bazar təsərrüfatı modelidir. İsveç modeli,onun klassik şəklində – gəlirlərin geniş şəkildə yenidən bölüşdürülməsinə və müxtəlif «sərbəst assosiasiyaların» yaradılmasına əsaslanan sosial zəmanətlərin yüksək səviyyəsi ilə səjiyyələnən sosial modelidir. Yapon modeli – kapital yığımının əlverişli imkanlarının iqtisadi inkişafın proqramlaşdırılması, struktur, investisiya və xarici iqtisadi siyasət sahəsində dövlət tənzimlənməsinin fəal rolu və korporativ (firmadaxili) zəminin xüsusi sosial əhəmiyyəti ilə birləşdiyi tənzimlənən korporativ kapitalizm modelidir.

## *Mövzu 5. İqtisadi institutlar və mülkiyyət*

**1.İnstitut - iqtisadi nəzəriyyənin institusional istiqamətinin əsas kateqoriyası kimi.**
**2.İqtisadiyyatda institutların rolu. Transaksiya xərcləri.**
**3.Mülkiyyət kateqoriyası və onun məzmunu**
**4.Mülkiyyətin tipləri və formaları, onların reallaşması**
**5.Milliləşdirmə və özəlləşdirmə. Azərbaycanda özəlləşdirmə prosessi və onun xüsusiyyətləri.**

### *1.İnstitut - iqtisadi nəzəriyyənin institusional istiqamətinin əsas kateqoriyası kimi.*

İqtisad elmində institut anlayışı iqtisadi nəzəriyyənin sosial- institusional istiqamətinin yaranması ilə meydana gəlmişdir. İnstitut dedikdə iqtisadi subyektlərə təsir göstərən qayda və normaların məcmusu, habelə bu norma və qaydalara əməl edilməsinə məcbur etmə mexanizmi başa düşülür.

İnstitutlar formal xarakter daşıya bilər, yaxud qanunveriçilik yolu ilə təsbit oluna bilər, həmçinin məsələn ənənə, vərdişlər ümumi qəbul edilmiş davranış normaları kimi, qeyri-formal da ola bilər.

İqtisadiyyata təsir göstərən formal norma və qaydalar adətən iqtisadiyyatın dövlət tənzimlənməsinin müxtəlif formalarını təcəssüm etdirir. Ancaq iqtisadi subyektlərin davranışına çox zaman həmçinin qeyri - formal qayda və normalar da təsir göstərir. Buna biznesmenlər arasında bağlanılan «centlmen sazişləri» dəyişən tarazlaşmalar da misal ola bilər.

İnstitutların olması təsərrüfat fəaliyyətinin qeyri-müəyyənliyini azaltmağa imkan verir, iqtisadi subyektlərin qərarlar qəbul etməsi prosesini asanlaşdırır. Amma əgər institutlar iqtisadi vəziyyətin dəyişməsinə uyğunlaşmırlarsa, onda onlar qeyri- səmərəli olur və iqtisadiyyatın inkişafına maneəçilk törədə bilər.

### *2. İqtisadiyyatda institutların rolu. Transaksiya xərcləri.*

İqtisadiyyatda institutların rolu nəinki iqtisadi subyektlərə əməl edilməsi lazım gələn iqtisadi seçimin asanlaşdırılmasından ibarətdir. İqtisadi institutlar həmçinin iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsinə səbəb olur, belə ki, onlar transaksiya xərclərini ixtisar etməyə imkan verir. Transaksiya xərcləri- mülkiyyət hüquqlarının verilməsilə əlaqədar mübadilə sferasındakı xərclərdir. Onlar informasiya axtarışı ilə bağlı xərcləri, danışıqların aparılmasına, müqavilələrin baglanmasına, bu müqavilələrin icrasına nəzarətə çəkilən məsəəfləri və sairəni özünə daxil edir.

Transaksiya xərcləri əgər iqtisadi institutlar kifayət qədər inkişaf etmiş olmursa, son dərəcə yüksək olur, çünki iqtisadi institutların zəifliyi fırıldaqçılıq, informasiyanın təhrif olunması, bağlanmış sazişlərin pozulması üçün əlverişli şərait yaradır. Transaksiya xərcləri o yerdə xüsusən böyük olur ki, orada mükliyyət hüquqları dəqiq müəyyənləşdirilmiş olmur. Qeyd

etmək lazımdır ki, bəzən iqtisadi subyektlərin hüquqlarının və onların müstəqilliyini məhdudlaşdıranı müxtəlif inzibati baryerlər yaradan, bürokratiyanın genişlənməsinə şərait yaradan güclü institutlar da tansaksiya xərclərinin artmasına səbəb ola bilər. Bura görə də institutlar iqtisadiyyatda və bütövlükdə cəmiyyətdə baş verən dəyişikliklərə uyğun olaraq inkişaf etməli və dəyişməlidir.

### *3. Mülkiyyət kateqoriyası və onun məzmunu*

Mülkiyyət yalnız iqtisadi deyil, həmçinin hüquqi kateqoriyanı ifadə edir. Mülkiyyət iqtisadi kateqoriya kimi, mənimsəmə və ya başqa sözlə desək, istehsal vasitələri və onların köməyilə yaradılan nemətlərin məxsusluğu münasibətlərini əks etdirir. Yaxud mülkiyyət münasibətləri mülkiyyətçinin öz əmlakına münasibətlərini təmsil edir.

Əgər mülkiyyətə hüquq nöqtəyi –nəzərindən baxsaq, onda mülkiyyət hüquqi mülkiyyət üzrə mülkiyyət hüquqlarının butöv dəstini göstərir. Onların içərisində ən mühümləri kimi yuxarıda xatırlanan mənimsimə hüququ özgəninkiləşmə (mülkiyyət hüququnun digər iqtisadi subyektə verilməsi) hüququ, əmlaka sahiblik, istifadə etmə və sərəncam vermə hüquqlarını ayırırlar. İstifadə etmə hüququ mülkiyyətçi tərəfindən digər şəxsə verilə bilər, məhz icarə kimi, belə bir genişlənmiş iqtisadi hadisə buna əsaslanmışdır.

Müasir iqtisadi nəzəriyyədə mülkiyyət hüquqları nəzəriyyəsi getdikcə daha geniş yayılır ki, bunun da əsasında resursların məhdudluğu kimi, onların belə bir xüsusiyyəti durur. Bu nəzəriyyəyə uyğun olaraq mülkiyyət münasibətləri resurslara çatmaqdan istisna olunma sistemin təmsil edir (qaydaya görə resurs nə qədər çox nadir olarsa ona çatmaq bir o qədər məhduddur). Bu nəzəriyyədə mülkiyyət hüquqlarının spesifikləşdirilməsinə, yaxud onların dəqiq müəyyinləşdirilməsinə mühüm əhəmiyyət verilir, çünki mülkiyyət hüquqlarının müəyyənləşdirilməsindəki qeyri- dəqiqlik transaksiya xərclərinin artmasına və iqtisadi səmərəliliyin aşağı düşməsinə səbəb olur.

### *4. Mülkiyyətin tipləri və formaları, onların reallaşması*

İqtisad elmində adətən mülkiyyətin iki əsas formasını fərqləndirirlər: xüsusi və ictimai.

Xüsusi mülkiyyət ev təsərrüfatlarının mülkiyyətini (şəxsi əmlakı və əmanətləri) və ayrı-ayrı şəxslərin mülkiyyətində olan müəssisələri təmsil edir. İctimai mülkiyyət birinci növbədə dövlət mülkiyyət formasında mövcud olur. Dövlət mülkiyyəti iqtisadi nöqteyi-nəzərdən xüsusi mülkiyyətə nəzərən daha az səmərəlidir, ancaq o mərkəzləşdirilmiş idarəetmənin tələb olunduğu sfera və sahələrdə, strateji sahələrdə (həyati təminat sahələri – enerji, su, qaz təchizatı) aşağı mənfəətli sahələrdə (məsələn, bir çox ölkələrdə kömür hasilatı sənayesi) habelə çox iri kapital qoyuluşlarını tələb edən sahələr də münasibdir və hətta zəruridir. İctimai mülkiyyətə həmçinin bələdiyyə mülkiyyət forması da aiddir.

Mülkiyyət formaları müxtəlif mülkiyyət formalı: xüsusi və dövlət müəssisələrinin yaradılmasınada reallaşır. Müasir iqtisadiyyatda həm xüsusi, həm içtimai mülkiyyət formalarının əlamətlərini uzlaşdıran kollektiv mülkiyyət müəssisələri geniş yayılmışdır. Belə mülkiyyət növlərinə kooperativ mülkiyyəti şəriklik formasında müəssisələrin mülkiyyəti, sahmdar çəmiyyətlərinin mülkiyyəti aiddir.

Mülkiyyət haqqında Azərbaycan Respublikası qanununa uyğun olaraq bizim ölkədə mülkiyyət dövlət, kollektiv və xüsusi mülkiyyət formasında çıxış edir. Həmçinin qarışıq mülkiyyət formasının yaradılmasına da yol verilir.

### *5.Milliləşdirmə və özəlləşdirmə. Azərbaycanda özəlləşdirmə prosessi və onun xüsusiyyətləri.*

Müəssisələr özünün mülkiyyət formasını özəlləşdirmə və ya milliləşdirmə yolu ilə dəyişdirə bilər. Müəssisələrin xüsusi mülkiyyət formasından dövlət mülkiyyət formasına keçidi

milliləşdirmə adlanır. Dövlət mülkiyyət formasında xüsusi və ya kollektiv mülkiyyət formalarına keçid özəlləşdirmə adlanır.

Özəlləşdirmə müxtəlif üsullarla aparılar bilər: dövlət mülkiyyətinin əvəzsiz və ya pulla (adətən hərraclar yolu ilə) müəssisələrin səhmdarlaşdırılması, çek özəlləşdirilməsi və s. yolla xüsusi mülkiyyətə verilməsi.

Özəlləşdirmə inzibati – amirlik sistemindən bazar tipli iqtisadiyyata keçidi prosesində mühüm mərhələdir. Azərbaycanda özəlləşdirmə prosessi 1995-ci ildə qəbul edilmiş Dövlət özəlləşdirmə Proqramı əsasında keçmişdir. Azərbaycan Respublikasında özəlləşdirmənin səciyyəvi xüsusiyyəti bu olmuşdur ki, o əhaliyyə özəlləşdirmə çeklərinin verilməsi, həmçinin hərraclarda (istər çek, istərsə də həmçinin pul) müəssisələrin satışı yolu ilə baş vermişdir. 2000 –ci ildə ikinci özəlləşdirmə proqramı fəaliyyətə başladı. Dövələt özəlləşdirmə Proqramına uyğun olaraq orta və iri müəssisələrin özəlləşdirilməsi zamanı səhmdar cəmiyyətinin səhmləri aşağıdakı satış tipləri üzrə belə bölünmüşdür:

-kollektivə güzəştli satış-15%;

-çek hərracları (investisiya müsabiqələri və sövdələri -55% dən olmamaqla).

Kiçik müəssisələrin özəlləşdirilməsi zamanı obyektin dəyərinin -15%-i əmək kollektivinin üzvlərinə özəlləşdirmə çeklərilə satılmışdır, 85% -i açıq pul hərraclarına çıxarılmışdır.

Azərbaycanda özəlləşdirmənin ən səciyyəvi cəhətlərindən biri onun aparılması modelləri ilə bağlıdır.

Azərbaycanda özəlləşdirmənin xüsusiyyətlərinə onun kənd təsərrüfatından başlanmasını aid etmək olar.

Azərbaycanda özəlləşdirmənin xarakterik cəhətlərinə özəlləşdirmənin dünya ölkələrinin üzünə açıq olmasıdır.

Azərbaycanda özəlləşdirmə modelinin fərqləndirici cəhətlərindən biri də dövriyyəyə buraxılan özəlləşdirmə çeklərinin nominal qiymətə malik olmasıdır.

## Mövzu 6. Bazar və bazar iqtisadiyyatı.

### 6.1. İctimai təsərrüfatın əsas formaları: natural təsərrüfat, əmtəə təsərrüfatı, sadə əmtəə təsərrüfatı, kapitalist əmtəə təsərrüfatı.

Natural təsərrüfat qapalı təsərrüfatdır. Burada maddi nemətlər və xidmətlər birbaşa istehlak etmək üçün istehsal olunurlar. Məhsullar bazara girmədən istehlaka daxil olur.

Natural təsərrüfatın maddi əsasını aşağı səviyyədə olan ictimai əmək bölgüsü təşkil edir. Əmtəə təsərrüfatı forması natural təsərrüfatın əksi kimi əvvəlcə icmalar arasındakı münasibətlərdə yaranır, sonra isə onların daxilinə nüfuz edərək tədricən natural təsərrüfatın cəmiyyətin ictimai həyatında 2-ci dərəcəli və aradan qalxmaqda olan elementinə çevrilir.

Sadə əmtəə təsərrüfatı istehsal vasitələri üzərində xüsusi mülkiyyətə və mülkiyyətçinin şəxsi əməyinə əsaslanır. O özünün istehsal etdiyi məhsulları satmaqla istehsal prosesini davam etdirməyə və öz ailəsinin yaşayışını təmin etməyə çalışır.

Kapitalist əmtəə təsərrüfatı isə istehsal vasitələri üzərində xüsusi mülkiyyətə və muzdlu işçilərin əməyinə əsaslanır. Burada məqsəd mülkiyyətçinin varidatını artırmaqdan ibarətdr. Gəlir götürməkdir.

### 6.2. Bazarın meydana gəlməsinin tarixi şərtləri. Bazarın fünksiyaları.

Bazarın meydana gəlməsinin tarixi şərtləri içərisində ictimai əmək bölgüsü və ixtisaslaşma mühüm əhəmiyyət kəsb edir. Ictimai əmək bölgüsü əmək fəaliyyətinin müxtəlif növlərinin həyata keçirilməsi və ictimai formada diferensiallaşması ilə baş verən müxtəliffəaliyyət növlərinin ayrılmasının, möhkəmlənməsinin, dəyişməsinin tarixi prosesidir.

İxtisaslaşma isə istehsalçıların əmək bölgüsü əsasında ayrı-ayrı məhsullar və onların hissələrinin hazırlanmasına yönümlənməsidir.

Digər bir şərt istehsalçıların iqtisadi cəhətdən təcrid olması, əlahiddələşməsi, transaksion xərclər və istehsalçının müstəqilliyidir. Bazarın iqtisadi mahiyyəti öz əksini onun funksiyalarında tapır. Bu funksiyalar dedikdə birləşdirmə, tənzimləyici, həvəsləndirici, qiymətəmələgəlmə, nəzarət, vasitəçilik, informasiya, qənaətçilik və s. təşkil edir.

### 6.3. Bazarın tipologiyası.

Bazarın tipologiyası dedikdə inkişaf etməmiş, azad, tənzimlənən və deformasiya edilmiş bazar başa düşülür. İnkişaf etməmiş bazarda bazar münasibətləri təsadüfi, əsasən əmtəə (barter) səciyyəlidir.Burada cəmiyyət üzvlərinin təbəqələşməsi və digər əmtəənin istehsalına maraq güclənir.

Azad (klassik) bazar özünü tənzimləmə mexanizmi əsasında fəaliyyət göstərir. Burada tələb əsasında qiymətlər vasitəsilə istehsala kapital qoyuluşu istiqamətləndirilir.

Tənzimlənən bazar cəmiyyətin sivilləşməsi və humanistləşməsinin nəticəsidir ki, bu zaman dövlət cəmiyyətin ayrı-ayrı üzvlərinin maraqlarına bazarın zərbəsini zəiflətməyə çalışır. Dövlət müəyyən dərəcədə bazarın fəaliyyəti üçün şərait yaradır və onun bazar münasibətlərinə həddən artıq qarışması onların deformasiyası ilə nəticələnir. İnzibati amirlik iqtisadi sistemində bazar deformasiyaya uğrayır.

### 6.4. Bazarın strukturu. Bazarın növləri.

Bazarın strukturu dedikdə bazarın ayrı-ayrı elementlərinin daxili quruluşu, yerləşməsi, düzülüşü, onların bazarın ümumi həcmində xüsusi çəkisi başa düşülür.

Bazarın obyektləri üzrə strukturu aşağıdakı bazar növlərini yaradır.

Əmtəə və xidmətlər bazarı, iş qüvvəsi bazarı, istehsal vasitələri bazarı, qiymətli kağızlar və valyuta bazarı, innovasiya bazarı, informasiya bazarı, lisenziyalar bazarı və s.

Subyektlərinə görə bazar strukturu aşağıdakı bazar növlərini yaradır. Bura alıcı bazarı, satıcı bazarı, dövlət təşkilatları bazarı, aralıq satıcı-vasitəcilər bazarı daxildir.

### 6.5. Bazar infrastrukturu.

“İnfrastruktur” məfhumu latın sözləri infra-aşağı, altında, struktura – tikili, birləşmədən əmələ gəlib. İnfrastruktur dedikdə istehsal, sosial və bazar infrastrukturu növləri başa düşülür.

Bazar infrastrukturu əmtəə və xidmətlərin hərəkətlərini, alqı-satqı aktlarını və ya bazara xidmət edən və onun normal rejimdə fəaliyyətini təmin etmək üzrə müəyyən funksiyaları yerinə yetirən institutlar, sistemlər, xidmətlər, müəssisələrin cəmini əhatə edən təşkilati-hüquqi formaların məcmusudur.

Bazar infrastrukturunun elementləri içərisində əsas yerlərdən birini birjalar təşkil edir. Birjaların əsasən əmtəə, fond və valyuta növləri mövcuddur.

Birjanın digər elementləri içərisində hərraclar, yarmarkalar, lizinq xidməti və s. xüsusi əhəmiyyət təşkil edir.

## Mövzu 7. Bazar iqtisadiyyatı subyektlərinin ümumi səciyyəsi.

### 7.1. Bazar subyektləri: ev təsərrüfatı, firma və dövlət.

Bazar iqtisadiyyatının subyektləri dedikdə ev təsərrüfatı, firma və dövlət başa düşülür.

Ev təsərrüfatı bazar iqtisadiyyatında bir və ya bir neçə şəxsdən ibarət olan, müstəqil surətdə qərarlar qəbul edən, tələbətlarını maksimal ödəməyə çalışan və onlar müəyyən üstünlük verən, hər hansı bir istehsal amilinin sahibi olan “İnsan kapitalı”nın istehsalını və təkraristehsalını təmin edən iqtisadi vahiddir.

Firma istehsal amillərinin planlı kombinasiyası vasitəsilə əmtəə və xidmətlərin hazırlanması və reallaşdırılması yolu ilə şəxsi maraqlarını həyata keçirən təsərrüfat vahididir.

Dövlət (hökumət) ictimai məqsədlərə çatmaq üçün təsərrüfat subyektləri və bazar üzərində lazım olanda nəzarəti təmin etmək üçün hüquqi və siyasi hakimiyyəti həyata keçirən müxtəlif hökumət idarələri ilə təmsil olunur. Dövlət digər subyektlər kimi sahibkarlıqlada məşğul olur. Dövlət sahibkarlığı.

### 7.2. Firma resurslarının istehlakçısı və hazır məhsulun təchizatçısı kimi.

Firma dedikdə istehsal amillərinin kombinasiyası vasitəsilə məhsul və xidmətlərin hazırlanması və reallaşdırılması ilə məşğul olan təsərrüfat vahidi nəzərdə tutulur. Hər bir firma iqtisadiyyatın ilk quruluş həlqəsidir. O bir tərəfdən texniki vahiddir, digər tərəfdən sosial vahiddir. Firma texniki vahiddir. Bu o deməkdir ki, orada müəyyən bir hissənin və ya məhsulun hazırlanması texnologiyası başa çatmış olur. Firma sosial vahiddir, bu o deməkdir ki, burada cəmiyyətin müəyyən sayda üzvləri fəaliyyət göstərir. Məhsul və xidmətlərin istehsalı ilə əlaqədar onlar arasında iqtisadi münasibətlər baş verir. Firmalar məqsədindən, fəaliyyətindən və davranışından asılı olaraq hər bir milli təsərrüfatçılığın işgüzar fəallığını əks etdirir. Çünki firmanın məqsədi bilavasitə onun funksional fəallığını hərəkətə gətirir.

## 7.3. Sahibkarlıq fəaliyyətinin mahiyyəti və vəzifələri. Biznes, sahibkarlıq fəaliyyəti və kommersiya.

İqtisadi subyektlərin bazar təsərrüfatı şəraitində sahibkarlıq fəaliyyəti xüsusi rola malikdir. Çünki istehsal amili kimi ilkin olaraq sahibkarlıq fəaliyyəti kimi özünü əks etdirən sahibkarlıq, istehsal prosesinin təşkili və fəaliyyəti ilə əlaqədar olaraq, istehsal amillərinin birləşdirilib hərəkətə gətirilməsi ilə əlaqədar olaraq xüsusi fəaliyyət növü kimi meydana gəlir.

Sahibkarlıq fəaliyyətinin vəzifələri istehsal amillərini bir yerə toplamaq, maksimum mənfəət əldə etmək, iqtisadi fəaliyyətin müxtəlif məsələləri üzrə səmərəli və düzgün qərarlar qəbul etmək və s. ibarətdir.

Biznes mənfəət və ya şəxsi gəlir gətirən iş və ya istənilən fəaliyyət növüdür.

Kommersiya insanların məhsulun realizə edilməsi və ticarət mənfəətinin əldə olunmasına yönəlmiş ticarət fəaliyyətidir.

## 7.4. Müəssisənin əsas təşkilati iqtisadi formaları.

Kiçik, orta, iri müəssisələr işçilərin sayı və dövriyyə kapitalının həcminə görə fərqlənirlər. Bazar iqtisadiyyatında xüsusi təşkilati-iqtisadi formada cəmiyyət və ya birliklərdən ibarət olan kooperativlər çıxış edirlər. Onların fəaliyyəti kooperativin üzvlərinə yardım göstərməyə yönəlib. Kredit, satış, istehlak, mənzil, istehsal kooperativləri mövcuddur. Bu təsərrüfatlarda kooperativin üzvləri adətən həm əmək sərf edənlər, həm də istehsal vasitələrinin sahibidirlər.

Müasir inkişaf etmiş bazar sistemində təsərrüfatın ən çox yayılmış forması səhmdar cəmiyyətdir ki, bu məhfum altında ümumi səhmdar kapitala pul ödəyən, sahibkar fəaliyyətində ondan istifadə edən və birgə gəlir əldə edən və ya itki verən şəxslərin birliyi başa düşülür. Səhmdar cəmiyyəti-səhmlərin satışı yolu ilə pul vəsaitlərinin mərkəzləşdirilməsi əsasında istehsalın təçkili formasıdır.

## 7.5. Dövlət bazar iqtisadiyyatının subyekti kimi. Dövlət sahibkarlığı.

Dövlət müxtəlif hökumət təşkilatları simasında çıxış edərək iqtisadi subyektlərin normal fəaliyyətinə təminat verən siyasi və hüquqi hakimiyyətdir. Həm iqtisadi subyektlərin, həm də bütövlükdə cəmiyyətin mənafelərinin normal reallaşdırılmasına nəzarət edir.

Dövlət ictimai məqsədlərə çatmaq üçün təsərrüfat subyektləri və bazar üzərində lazım olanda nəzarəti təmin etmək üçün hüquqi və siyasi hakimiyyəti həyata keçirən müxtəlif hökumət idarələri ilə təmsil olunur. Dövləti təmsil edən büdcə təşkilatlarının məqsədi mənfəət əldə etmək yox, iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi funksiyasını həyata keçirməkdir. Dövlət sahibkarlığı fəaliyyəti adətən iqtisadiyyatın ya çox yüksək ilkin kapital qoyuluşu tələb olunduğu, ya xərclərin ödənilməsi müddəti çox uzun olduğu, ya da cəmiyyət üçün zəruri məhsulun istehsalının ziyan gətirəcəyi qabaqcadan məlum olduğu sahələri əhatə edir.

## Mövzu 8. Bazarın sistem yaradan elementləri.

### 8.1. Nemət və xidmətlər. Əmtəə və onun xassələri. İstehlak dəyəri. Mübadilə dəyəri.

Bazar təsərrüfatı nəzəriyyəsinin əsas kateqoriyası əmtəə olsa da, bundan öncə tarixi və məntiqi olaraq "nemət kateqoriyası" gəlmişdir.

Nemət dedikdə insanların müəyyən tələbatını ödəyən əşyalar daha doğrusu şeylər nəzərdə tutulur. Nemətlər təbii və iqtisadi nemətlərə ayrılır. Təbii nemətlər dedikdə hava, su, günəş, külək və s. başa düşülür. İqtisadi nemətlər dedikdə isə təbii nemətlər vasitəsi ilə insanların fəaliyyəti nəticəsində istehsal olunmuş madii nemət və xidmətlər nəzərdə tutulur. Xidmət də insan əməyinin nəticəsidir, lakin onlar əsasən maddiləşmirlər. Əmtəə-mübadilə üçün nəzərdə tutulmuş və insanın hər hansı tələbatını ödəyə bilən əmək məhsuludur. Əmtəə bir tərəfdən istehlak dəyəri, digər tərəfdən isə mübadilə dəyəri xassəsinə malikdir. İstehlak dəyəri dedikdə əmtəənin faydalılığı, insanın bu və ya digər tələbatını ödəməsi başa düşülür. Mübadilə dəyəri xassəsi dedikdə müxtəlif istehlak dəyərlərinin bir-biri ilə mübadilə oluna bilmək qabiliyyətidir.

### 8.2. Dəyər, dəyərlilik, faydalılıq.

Dəyər əmtəə istehsalçılarının əmtəədə maddiləşmiş əməyidir. Dəyər kəmiyyəti isə əməyin sərf olunduğu vaxtla (iş vaxtı ilə) ölçülür. Dəyərin kəmiyyəti əməyin fədi deyil, ictimai zəruri məsrəfləri ilə müəyyən edilir.

Əmtəənin dəyəri müəyyən konkret tarixi şəraitdə iqtisadi qiymətliliyin (dəyərlilik) təzahürünü xüsusi izahıdır. Bəşəriyyət iqtisadi fəaliyyət, iqtisadi fəaliyyət isə məqsəd və vasitənin vəhdəti kimi iqtisadi qiymətlilik olmadan mövcud ola bilməz. Qiymətliliyin mahiyyəti onun məqsədi və vasitələri özündə təcəssüm edən müəyyən iqtisadi fəaliyyətdir.

Nemətlərin faydalılığı onların məhdudluğu, tələbatların təmin edilmə dərəcəsindən asılı olduğu üçün nemətlərin istehsalının artması onların iqtisadi faydalılığının artmasına düz mütənasib deyil, belə ki, bu nemətlərin mövcud miqdarının artması ilə onlar qiymətdən düşür, məhdudluğunu itirir, nisbətən az faydalı olurlar.

### 8.3. Dəyər formalarının inkişafı.

Müasir cəmiyyətin həyatında mühüm rol oynayan pulun meydana gəlməsi prosesi dəyər formalarının inkişafı ilə əlaqədardır.

Cəmiyyətin inkişafının aşağı mərhələsində sadə və ya təsadüfi dəyər forması mövcud olmuşdur. Bu zaman natural təsərrüfatlar arasında mübadilə təsadüfi xarakter daşıyırdı. Mübadilə edilən məhsulların biri nisbi, digəri isə ekvivalent formada olmuşdur. Cəmiyyətin və mübadilənin inkişafı ilə əlaqədar olaraq sonralar

dolğun və ya geniş dəyər forması meydana gəlmişdir. Bu formanın xarakterik cəhəti ondan ibarətdir ki, müəyyən bir əmtəə nisbi dəyər formasında, bir neçə əmtəə isə ekvivalent dəyər formasında olmuşdur.

Əmtəə istehsalı və mübadiləsinin sonrakı inkişafı ümumi dəyər formasının meydana gəlməsinə səbəb olmuşdur. Bu forma əvvəlkilərə nisbətən mütərəqqi olsa da, əmtəə mübadiləsinin inkişafına maneçilik törədirdi. Belə bir şəraitdə bütün bazarlarda ümumi ekvivalent rol oynayan pul meydana gəldi.

### 8.4. Pulun funksiyaları.

Pul ümumi ekvivalent rolu oynayan əmtəədir. O əmtəələrin dəyərini ölçür və onların mübadiləsində vasitəçi rolunu oynayır. Pulun mahiyyəti, öz əksini onun funksiyalarında tapır. Bunlar aşağıdakılardan ibarətdir.

1) Pul dəyər ölçüsüdür. Bu o deməkdir ki, pul tədavül dairəsində olan əmtəələrin dəyərini ölçür.
2) Pul tədavül vasitəsidir. Pul bu vəzifəni yerinə yetirərkən əmtəə ilə öz yerini dəyişir.
3) Pul tədiyyə vasitəsidir. Pulun bu vəzifəsi əmtəələrin möhlətlə satılması zərurəti ilə əlaqədardır.
4) Pul yığımdır. Yığım dedikdə pulun tədavüldən götürülməsi ilə əlaqədardır.
5) Pul dünya puludur. Bu öz əksini qızılda və dollarda tapır.Ölkələr arası mübadiləyə xidmət edir.

### 8.5. Pul sistemləri və onların təkamülü.

Pul sistemi ölkədə tarixən yaranan və mili qanunvericiliklə təsbit edilən pul tədavülünün təşkili formasıdır. Pul sistemlərinin aşağıdakı tipləri mövcuddur.

a) pul əmtəəsinin bilavasitə tədavül etdiyi və pulun bütün funksiyalarını yerinə yetirdiyi, kredit pulların isə metala dəyişdirilə bildiyi metal tədavülü sistemləri

b) qızılın tədavüldə sıxışdırılıb çıxarıldığı kredit və kağız pulların tədavül sistemidir.

Ölkədə ümumi ekvivalent və pul tədavülü bazası kimi qəbul olunmuş metaldan asılı olaraq bimetalizm və monometalizm fərqləndirilir.

Bimetalizm ümumi ekvivalent rolunu iki nəcib metalın (qızıl və gümüş) oynadığı tədavlü nəzərdə tutulan pul sistemidir.

Bazarın inkişafı sabit pul, vahid ümumi ekvivalent tələb edirdi. Ona görə də bimetalizm yerini monometalizmə verdi.

Monometalizm bir metalın (qızıl və ya gümüş) ümumi ekvivalent və pul tədavülünün əsası olduğu pul sistemidir.

## Mövzu 9. Bazar mexanizmi: mahiyyəti, əsas elementləri və qanunlar

## 9.1. Bazar mexanizmi və onun elementləri.

Bazar iqtisadiyyatı sistemində özütənzimlənən mexanizm kimi, bazar mexanizmindən istifadəsiz bazar mümkün deyil. Bazar mexanizmi bazar subyektləri və onların məhsul istehsalı və satışında, həmçinin kapital qoyuluşu sahəsində maraqlarının qarşılıqlı əlaqəsini və qarşılıqlı təsirini təmin edir. Məlumdur ki, istənilən təsərrüfat mexanizmi qarşılıqlı əlaqədə olan elementlərin məcmusudur, elementlərin hərəkət dinamikasını, həmçinin iqtisadi sistemin təşkilati quruluşunu müəyyənləşdirən iqtisadi qanunlar sistemidir.

Bazar mexanizmi bazarın əsas elementlərinin və bazarın əsas iqtisadi qanunlarının qarşılıqlı əlaqə və s. qarşılıqlı təsir mexanizmidir. Bazarın əsas elementləri, ünsürləri dedikdə tələb, təklif, qiymət, rəqabət, inhisar nəzərdə tutulur. Bunlar bir-biri ilə sıx bağlı olan, biri digərini tələb edən, bəzən isə biri digərini məhdudlaşdıran tənzim edən iqtisadi kateqoriyalardır.

## 9.2. Dəyər qanunu, mahiyyəti və funksiyaları.

Dəyər qanunu əmtəə, istehsalının ümumi iqtisadi qanunudur. Bu qanuna görə əmtəə istehsalı və mübadiləsi və deməli iqtisadiyyatın nisbətlərinin müəyyənləşdirilməsi ictimai zəruri əmək sərfinə müvafiq olaraq həyata keçirilir. Dəyər qanununun mahiyyəti onun funksiları vasitəsilə reallaşır.

a) istehsal sahələri və dairələr arasında əmək, kapital və təbii resursların bölgüsü. Bu o deməkdir ki, dəyər qanunu kortəbii olaraq istehsal vasitələri və işçi qüvvəsinin iqtisadiyyatın müxtəlif sahələri araında yenidən bölgüsünü həyata keçirir.
b) əmək məhsuldarlığının artması və elmi texniki tərəqqinin həvəsləndirilməsi. Bu o deməkdir ki, dəyər qanunu məhsuldar qüvvələri inkişaf etdirir.
c) Əmtəə istehsalçılarının təbəqəşməsi. Bu funksiyanın mahiyyəti o deməkdir ki, əmtəə istehsalçıları arasında təbəqələşmə baş verir.

## 9.3. Bazar mexanizmi sistemində rəqabət və onun növləri.

Rəqabət əmtəə istehsalı və realizə edilməsinin (alış və satışının) ən yaxşı şəraitləri uğrunda bazar təsərrüfatının ayrı-ayrı subyektləri arasında mübarizədir. İstehsal vasitələri üzərində mülkiyyət müxtəlifliyi istehsalçılar və həmçinin istehlakçılar arasında rəqabətin baş verməsinə səbəb olur. Rəqabət bazar təsərrüfatı sisteminin ağırlıq mərkəzi, bazarda qiymətlərin və təklif olunan əmtəələrin həcmini müəyyənləşdirmək istiqamətində istehsalçılar arasında olan münasibətləri əks etdirir. İnsani rəqabət mübarizəsinə girməyə sövq edən amil bşqalarına üstün gəlmək arzusudur.

Rəqabət iqtisadi tərəqqinin hərəkətverici qüvvəsidir. Marksizmə görə rəqabət iqtisadi bəhsləşmənin antoqonist cəmiyyətə xas olan formasıdır. Bu da öz əksini sahələrarası və sahələrdaxili rəqabət növlərində tapır.

Müasir nəzəriyyəçilərə görə isə rəqabət, istehsalçı və istehlakçıların bazara azad surətdə daxil olmalarını və çıxmalarını nəzərdə tutur. Bu da öz əksini azad (mükəmməl) və inhisarçı (qeyri mükəmməl) rəqabət növlərində tapır.

### 9.4. İqtisadiyyatda inhisarçılıq və onun növləri.

İstehsalın təmərküzləşməsi və mərkəzləşdirilməsi sonda inhisarların yaranmasına gətirib çıxarır.

Bu rəqabətə əks olan bir kateqoriyadır. İnhisar hər hansı bir təsərrüfat fəaliyyətinin həyata keçirilməsi dövlətin, müəssisənin, təşkilatın müstəsna hüququnu ifadə edir.

İnhisarların aşağıdakı növləri vardır.

a) kartel "Bu elə bir inhisar formasıdır ki, onun iştirakçıları xüsusi mülkiyyət hüququnu saxlayır, istehsal və satış proseslərini müstəqil həyata keçirirlər. Lakin onlar müəyyən şərtlər üzrə razılığa gəlirlər.
b) Sindikat – şərtlər karteldə olduğu kimidir. Lakin onun iştirakçıları istehsal etdiyi əmtəələrin satışı və istehsalı üçün lazım olan istehsal vasitələrinin alınması müəyyən bir təşkilat tərəfindən həyata keçirilir.
c) Trestdə isə istehsal vasitələri üzərində xüsusi mülkiyyət hüquqi itirilir.
d) Konserndə - isə təkcə istehsal müəssisələri deyil, nəqliyyat, sığorta, ticarət və s. iştirak edir.

### 9.5. Tələb və təklif.

Tələb ayrı-ayrı şəxslərin, cəmiyyət üzvlərinin müəyyən dövr ərzində məhsul və xidmətlərdən müəyyən qiymətdə, müəyyən kəmiyyədə əldə etmək arzusudur. Onların tələblərinin yerinə yetirilməsi, malik olduqları pulun miqdarından asılıdır.

Tələbin həcmi dedikdə konkret zaman kəsiyində alıcının müəyyən qiymətə almaq istədiyi əmtəənin həcmi nəzərdə tutulur.

Təklif dedikdə bazarda mövcud olan və ya bazara çıxarıla biləcək məhsul və xidmətlərin məcmusunəzərdə tutulur. Təklif satıcının müəyyən dövr ərzində hər hansı bir əmtəəni müəyyən qiymətə, müəyyən miqdarda satmaq arzusu və imkanıdır. Təklif bazarın maddi əsasını təşkil etməklə, təkrar istehsal prosesinin fasiləsizliyini təmin edir.

## Mövzu 10. Bazar iqtisadiyyatında ev təsərrüfatı.

### 10.1. Ev təsərrüfatı və ailənin iqtisadi fəaliyyəti.

Ailə və ev təsərrüfatı bazar iqtisadiyyatında bir və ya bir neçə şəxsdən ibarət olan, müstəqil surətdə qərarlar qəbul edən tələbatlarını maksimal ödəməyə çalışan

və onlara müəyyən üstünlük verən, hər hansı bir istehsal amilinin sahibi olan insan kapitalının istehsalını və təkrar istehsalını təmin edən iqtisadi vahiddir.

Ailə-həyat fəaliyyəti fərdin, ailənin və ümumilikdə cəmiyyətin sosial, iqtisadi və mənəvi tələbatını ödəməyə yönəldilmiş bir qayda olaraq dərk edilmiş qohumluq əlaqələrinə və məişətin ümumiliyinə əsaslanan şüurlu təşkil olunmuş kiçik insan qruplarına deyilir.

Hər bir cəmiyyətdə ailə əmtəə və xidmətlər istehsalı və bölgüsündə həmişə əsas qüvvə olub. Üzvlərinin təmiz adının zəmanətçisi kimi, ailə xüsusilə uşaqların dünyaya gətirilməsi və onlara qulluq edilməsi və onların tərbiyyə olunması, qida ilə təminatında, xəstəliklər və başqa təhlükələrdən qorunmasında vacibdir.

## 10.2. Ev təsərrüfatı, onun modelləri və bazar iqtisadiyyatında onun rolu.

Ailənin bazar münasibətlərində iqtisadi rolu olduqca mürəkkəbdir. Ailə ev təsərrüfatının müxtəlif problemlərini, ailə biznesinin idarə olunması, işçi qüvvəsinin istehsalı, istehlak tələbatımım lazımi səviyyəsinin təmin edilməs, investisiya potensialının yaradılması və digər məsələlər həll edir.

Tarixin müxtəlif dövrlərində və ictimai-münasibətlərin xarakterindən asılı olaraq ailə onun cəmiyyətdə yeri və rolu, həcmi və sabitliyi, mövqeyi, sosial-iqtisadi statusu dəyişmişdir.

Ailənin sosial-iqtisadi statusu ailə münasibətlərində dövlətin sosial-siyasi quruluşunun xüsusiyyətlərini, onun hüquqi əsaslarını, iqtisadiyyatın, mədəniyyətin, ictimai özünüdərkin inkişaf səviyyəsini əks etdirən inteqral göstəricisidir.

## 10.3. Ev təsərrüfatının funksiyaları: sosial və iqtisadi funksiyalar.

Ailənin funksiyaları müxtəlifdir. Onlar cəmiyyətin fəaliyyətinin ən vacib sahələrinə toxunurlar və ümumilikdə onda baş verən sosial-iqtisadi prosesləri müəyyənləşdirirlər. Bazar iqtisadiyyatı şəraitində ailə insan kapitalının formalaşması və toplanmasında əsas rol oynayır. "İnsan kapitalının" formalaşmasının və fəaliyyətinin müxtəlif mərhələlərində ailənin funksiyaları qarşılıqlı əlaqəlidirlər. Məsələn, doğum funksiyasının aşağı düşməsi, ailənin əmək potensialını azaldır, onun istehsal imkanlarını zəiflədir və tərbiyəvi rola mənfi təsir göstərə bilər.

İctimailəşmə funksiyası insanın dövlətin köməkliyi ilə təhsil, səhiyyə xidmətləri, uşaqların tərbiyyələndirilməsi, mədəniyyətin və s. vasitəsilə ictimai sistemə qoşulması deməkdir.

Cəmiyyətin müasir inkişaf mərhələsində rekreasiya funksiyasının əhəmiyyəti artır, gərgin əməklə işləyən insan iş qabiliyyətini bərpa etmək üçün çox imkanlara malik olmalıdır.

## 10.4. Ev təsərrüfatının gəlirləri və xərcləri.

İnsan amilinin istehsalı üçün normal şəraitin yaradılması ailə büdcəsinin formalaşdırılmasını tələb edir.

Ailə büdcəsi iki hissəyə bölünür: gəlir və xərclər.

Gəlirlərə daxildir:

1) əmək haqqı
2) sahibkar gəliri
3) şəxsi mülkiyyətdən əldə olunan gəlir
4) dövlət transfert ödənişləri
5) digər mənbələrdən əldə olunan gəlirlər

Xərclərə daxildir:

1) sosial sığorta
2) vergilər
3) mənzil-kommunal xərclər
4) nəqliyyat
5) ictimai təşkilatlara könüllü ianə və pul köçürmələri.

**10. 5. Əhalinin pul gəlirləri və istehlak səbəti.**

Gəlirlər içərisində əhalinin pul gəlirləri xüsusi əhəmiyyət kəsb edir.

Əhalinin pul gəlirləri nominal, sərəncamda qalan və real gəlirlərə ayrılır.

Nominal gəlirlər dedikdə ayrı-ayrı şəxslərin, ev təsərrüfatların müxtəlif mənbələrdən əldə etdikləri pul nəzərdə tutulur. Sərəncamda qalan gəlir isə nominal gəlirlərdən, vergiləri və digər məcburi ödəmələri çıxdıqdan sonra yerdə qalan hissəsidir. Bu hissə ev təsərrüfatının şəxsi istehlakına və yığımına sərf olunur.

Real gəlirlər isə sərəncamda qalan gəlirlər hesabına mövcud qiymətlərlə əldə etdiyi əmtəələrin miqdarında ifadə olunan gəlirlərdir. Real gəlirlər əhalinin həyat səviyyəsini əks etdirən əsas göstəricisidir. Real gəlirlərin miqdarı, nominal gəlirlərin, vergi və digər məcburi ödəmələrin və qiymətlərin səviyyəsindən asılıdır.Bu da öz əksini istehlak səbəti anlayışında tapır.